

**Dmitri Savelyev: "Zəmanəmizin görkəmli siyasətçisi İlham Əliyev Azərbaycan xalqını inamla tərəqqiyə aparır"**

3

# Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində paylaşım edib



*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir.*

Səs
№ 237 (6437) 25 dekabr 2021-ci il. Qiyməti 40 qəpik

# İlham Əliyev: Xalqın bu dəstəyi mənə güc verir!



*"Mən bu dəstəyi 2003-cü ildən - Prezident vəzifəsinə ilk dəfə seçiləndən bu günə qədər hiss edirəm"*

## "Azərbaycanın möhtəşəm inkişaf yolunun davamı Prezidentin rəhbərliyi ilə bundan sonra daha uğurlu olacaq"



*"Bu gün çox əlamətdar gündür. Möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin 60 illik yubileyini qeyd edirik. Bu əlamətdar gündə Yeni Azərbaycan Partiyasının silsilə tədbirlərinin kuliminasiyası olaraq "Qarabağ: Cənubi Qafqazdan dünyaya açılan yeni mənzərə" mövzusunda konfrans keçirildi.*

## "Ermənistanın xəritə adı ilə verdiyi kağız parçaları həqiqətdən uzaqdır"



10

*"Ermənistanın Azərbaycana xəritə adı ilə verdiyi kağız parçaları həqiqətdən çox uzaqdır və dəfələrlə ölkə başçısı qeyd edib ki, bu xəritələrin həqiqilik səviyyəsi 25 faizi keçmir". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Üzeyir Cəfərov bildirib.*

## 30 ildə Ermənistanı 1,5 milyondan çox insan tərk edib

*"Son vaxtlar Ermənistanda mühacirətlə bağlı acınacaqlı vəziyyət yaranıb. Yaxşılığa doğru ümidlər çox azdır". Bu barədə Ermənistanın baş naziri yanında diasporla iş üzrə baş komissarı Zara Sinanyan bildirib. Eyni zamanda o, Ermənistanın bu vəziyyətlə barışa bilməyəcəyini, nəticənin ağır olacağını qeyd edib:*




13

## Parisin təxribatı, RSK-nın "görməzliyi", İrəvanın həyasızlığı: Bakının səbri tükənir!



12

*Görünür, Ermənistan yavaş-yavaş Fransanın əyalətlərindən birinə çevrilmək üzrədir. Fransa prezidenti Emmanuel Makron Brüssel görüşündə Azərbaycanın dövlət başçısı və Ermənistanın baş naziri ilə görüşdükdən sonra özünün erməni maraqlarına sadiq qaldığını hər vəchlə sübuta yetirməyə çalışır, Fransanın prezidentliyinə namizədləri isə ard-arda.*



**"İtaliya nəinki təkcə Avropa qitəsində, dünya miqyasında bizim ən yaxın tərəfdaşlarımızdan biridir"**

14



**Buffon: "Ronaldo "Yuventus"un sistemini pozdu"**

16

"Parma"da oynayan "Yuventus"un sabiq qapıçısı Canluici Buffon "Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldonun Turin...

# İlham Əliyev: Xalqın bu dəstəyi mənə güc verir!

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri dekabrın 24-də Hadrut qəsəbəsinə səfərdən sonra Şuşa şəhərinə gəliblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Şuşanın məşhur Cıdır düzündə çıxış edib.***



*"Mən bu dəstəyi 2003-cü ildən - Prezident vəzifəsinə ilk dəfə seçiləndən bu günə qədər hiss edirəm"*

"Son günlər ərzində mənə çoxlu təbrik məktubları gəlir, təbriklər gəlir, həm xaricdən həmkarlarımdan, müxtəlif ölkələrin dövlət və hökumət başçılarından, xaricdə yaşayan azərbaycanlılardan, təbii ki, ölkə vətəndaşlarından. Mən bütün insanlara - mənə xoş sözlər ünvanlayan, təbrik edən insanlara öz təşəkkürümü bildirmək istəyirəm. Xüsusilə Azərbaycan xalqına öz təşəkkürümü bildirmək istəyirəm, həm təbriklərə görə, həm də mənə göstərilən dəstəyə görə. Mən bu dəstəyi 2003-cü ildən - Prezident vəzifəsinə ilk dəfə seçiləndən bu günə qədər hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək iradəmi möhkəmləndirir. Bu dəstək nəticəsində biz hamımız - bütün Azərbaycan xalqı böyük tarixi uğurlara imza atmışıq.

Mən həmişə deyirdim ki, gün gələcək, işğal altındakı torpaqlarımız azad ediləcək, biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq. Azərbaycan xalqı bütün bu illər ərzində mənə inanırdı. Baxmayaraq ki, həm ovaxtkı məcburi köçkünlər, həm ölkə ictimaiyyəti il-







dən-ilə davam edən mənasız danışıqlara nəzər salaraq görürdü ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli çətinləşir. Amma buna baxmayaraq, doğma xalqım mənim sözlərimə inanırdı. Mən deyirdim ki, gün gələcək Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada dalğalanacaq və bu müqəddəs günü biz şəhidlərimizin qanı-canı bahasına yaşadıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bu gün biz azad Qarabağdayıq. Bu gün biz azad Zəngəzurdayıq. Biz - bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan xalqının mənim sözlərimə inamı məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq. Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu.

Azərbaycan xalqı yaxşı bilir ki, mən ad günlərimi qeyd etmirəm. Adətən ad günlərimə təsadüf edən günlərdə hansısa sosial obyektlərin açılışında iştirak edirdim, məcburi köçkünlərlə, şəhid ailələri ilə görüşürdüm. Şəhid ailələri üçün inşa edilmiş yeni evlərin açılışlarında, yeni salınmış köçkün qəsəbələrində bu kateqoriyadan olan insanlarla görüşürdüm. 50 illiyimi də məcburi köçkünlərlə bərabər qeyd etmişdim. 50 illiyimi Qarabağda - Ağcabədidə keçirdim, 60 illiyimi isə Qarabağda - bu dəfə Şuşada keçirirəm. Bu iki tarix arasında bir canlı bağlantı var. Ölkə ərazisində və bölgədə gedən proseslərə biz, sadəcə olaraq, seyrçi deyildik. Biz bu prosesləri böyük dərəcədə idarə edirdik. Biz bölgə gündəliyini formalaşdırırdıq. İkinci Qarabağ müharibəsində əldə edilmiş Zəfərdən sonra bizim gücümüz, nüfuzumuz, təsir dairəmiz daha da genişləndi.

Bu gün azad Qarabağda, Şuşada və Hadrutda olarkən mən, - əgər belə demək mümkündürsə, - öz ad günümü qeyd edirəm. Bu gün səhər Hadrutda Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi yeni silahlı birləşmə olan Komando Briqadasının hərbi hissəsinin açılışında iştirak edirdim. Mən bilirdim və hesab edirəm Azərbaycan xalqı da bu seçimi dəstəkləyər ki, bu gün mən Prezident, Ali Baş Komandan kimi hərbçilərə, Müzəffər Azərbaycan Silahlı Qüvvələrinə öz təşəkkürümü bildirmək və onların qarşısında yeni vəzifələr qoymaq üçün hərbçilərlə birlikdə olmalı idim.

Bu gün keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkib hissəsi olan Hadrutda - Xocavənd rayonunda ordu quruculuğunda aparılan işlərin yeni mərhələsinə qədəm qoyduq. Ondan sonra isə Şuşaya gəldim. Bu, mənim Şuşaya bu il yeddinci səfərimdir. Şuşa hər birimizi özünə çəkir. Düzdür, mən burada - Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. O tədbirlər ki, Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olmasını bir daha təsdiqləyir. Amma, eyni zamanda, hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm.

Bu gün bir şeyə kədərlənirəm ki, atam bu günü görə bilməyib. Ancaq bilirəm ki, onun ruhu şaddır. Necə ki, Vətən həsrəti ilə yaşamış və həyatdan getmiş, azad edilmiş bu torpaqları görməyən minlərlə, on minlərlə məcburi köçkünlərin ruhu şaddır, şəhidlərimizin ruhu şaddır. Biz şəhidlərimizin qanını yerdə qoymadıq, qanını aldıq və əcdadlarımızın ruhunu şad etdik."

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Yuxarı Gövhər Ağa məscidini ziyarət etdilər.

# “İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun, Azərbaycan xalqının əyilməz iradəsini göstərdi”

*Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər edib, burada hərbi hissənin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənov Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verib. Dövlətimizin başçısı tədbirdə çıxış edib.*

Prezident, Ali Baş Komandan İlham Əliyev öz çıxışında qeyd edib ki, son illər ərzində Azərbaycan ərazisində bir çox yerlərdə yeni hərbi hissələr, hərbi şəhərciklər salınıb. Onların böyük əksəriyyəti yeni inşa edilmiş hərbi hissələrdir. Bir hissəsi isə əsaslı təmir edilmiş hərbi hissələrdir: ”Biz bu sahəyə çox böyük diqqət yetirirdik, çünki hərbçilərin xidmət şəraiti elə olmalıdır ki, onlar istənilən vəzifəni icra edə bilsin, hazırlıq üçün, məşq üçün yaxşı şərait olsun. Ordu quruculuğu istiqamətində aparılan işlər arasında hərbi hissələrin yaradılması xüsusi yer tuturdu və deyə bilərəm ki, bu gün Azərbaycanın bütün bölgələrində əksər hərbi hissələr bizim standartlarımıza cavab verir.

Bu hərbi hissənin açılması çox böyük əhəmiyyət daşıyır. Çünki bu hərbi hissə işğaldan azad edilmiş ərazidə - Xocavənd rayonunda açılır və ordumuzun sərəncamına verilir. Hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların məişət-mənzil problemlərinin həlli də həmişə diqqət mərkəzində idi. Bildiyiniz kimi, 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə mənim Fərmanımla dövlət tərəfindən mənzillər verilir və bu günə qədər 2200-dən çox hərbçi dövlət tərəfindən mənzillə təmin olunmuşdur. Bu ilin sonuna qədər 130 hərbçi ailəsinə yeni mənzillər veriləcəkdir. Yəni, ordu dövlət tərəfindən, Prezident, Ali Baş Komandan tərəfindən daim diqqətlə əhatə olunub. Bu diqqət və qayğının nəticəsində bu gün Azərbaycanın müzəffər Ordusu dünyada məhz müzəffər, döyüş meydanında qalib gəlmiş ordu kimi tanınır.



*Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Hadrut qəsəbəsində hərbi hissənin açılışında iştirak edib*

Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsində xüsusi əhəmiyyətə malik olan bir əməliyyat idi. İlk növbədə ona görə ki, bu strateji qəsəbəni işğaldan azad etmək bizim gələcək planlarımıza əlavə dəstək verdi. Çünki əgər biz Hadrutu işğalçılardan azad etməsəydik, gələcək əməliyyatlarımız daha böyük çətinliklərlə üzləşə bilərdi. Təsadüfi deyil ki, işğaldan ilk azad edilmiş şəhər olan Cəbrayıldan sonra ikinci böyük yaşayış məntəqəsi Hadrut olmuşdur. Müzəffər Azərbaycan Ordusu ötən il oktyabrın 9-da bu qəsəbəni işğalçılardan azad etmişdir. Burada olan hər bir insan bu qəsəbəni əhatə edən dağları görərkən başa düşə bilər ki, bu, nə qədər böyük, çətin və şərəfli missiya idi. Çünki mənfur düşmən 30 il ərzində işğal altında olan bütün torpaqlarda güclü istehkamlar qurmuşdu, bir neçə xətdən ibarət müdafiə sədləri qurmuşdu. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur bölgəsinin təbii relyefi də düşmən üçün əlverişli idi. Çünki bu dağlarda, təpələrdə yerləşərək onlar böyük hərbi üstünlüyə malik idilər. Ona görə bizim hərbçilərimizin həm peşəkarlığı, həm fiziki gücü, mənəvi hazırlığı, vətənpərvərliyi, fədakarlığı bu şərəfli Qələbəmizə nail olmaq üçün bizə imkan yaratdı.





Əminəm ki, Hadrut əməliyyatı müasir dünya müharibələri tarixində öz layiqli yerini tutacaq. Ermənistan hər vəchlə çalışırdı ki, Hadrutu öz nəzarəti altında saxlasın. Hətta Hadrut işğalçılardan azad edildəndən bir neçə gün sonra onlar özlərinə xas yalanlar yayaraq Hadrutun sanki onların əlində olması haqqında iftiralar uydururdular. Artıq müzəffər Azərbaycan Ordusu Hadrutda dövlət bayrağımızı qaldırmışdı. Hadrut və bütün ətraf yüksəkliklər bizim əlimizdə idi. Ermənistan öz ordusunun mənəvi-psixoloji vəziyyətini anlayaraq Hadrut haqqında yalanlar yayırdı. Onu da bildirməliyəm ki, Hadrut azad ediləndən sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət almışdır və onların özlərinin etirafına görə müharibə zamanı 10 min fərari olmuşdur. Azərbaycan Ordusunda isə bir nəfər də fərari olmamışdır. Bizim vətənpərvərlik ruhumuz, qəhrəmanlığımız, Vətənə olan bağlılığımız, fədakarlığımız bütün dünyada Azərbaycan Ordusu, Azərbaycan xalqı haqqında dəqiq təsəvvür yaratdı. Göstərdi ki, biz böyük xalqıq, göstərdi ki, biz özümüzə məxsus olan torpaqları nəyin bahasına olursa-olsun azad edən xalqıq. Bu gün Hadrut əməliyyatı haqqında və bütövlükdə İkinci Qarabağ müharibəsi haqqında danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin!”

Daha sonra dövlətimizin başçısı, birinci xanım və oğulları təlim mərkəzi ilə tanış oldular və hərbçilərin nümunəvi çıxışlarına, ”pusqu”, ”basqı”, ”sızma” əməliyyatlarına baxdılar. Əsgərlərin universal bacarıqlarını nümayiş etdirdilər.

# “Azərbaycanın möhtəşəm inkişaf yolunun davamı Prezidentin rəhbərliyi ilə bundan sonra daha uğurlu olacaq”



“Bu gün çox əlamətdar gündür. Möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin 60 illik yubileyini qeyd edirik. Bu əlamətdar gündə Yeni Azərbaycan Partiyasının silsilə tədbirlərinin kuliminasiyası olaraq ”Qarabağ: Cənubi Qafqazdan dünyaya açılan yeni mənzərə” mövzusunda konfrans keçirildi. Bu konfransda ötən il Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm zəfərdən sonra regionumuzda yaranan yeni reallıqlar və bu reallıqlar əsasında Azərbaycanın, bütünlükdə regionun inkişafı perspektivləri müzakirə olundu. Müxtəlif sahələri əhatə edən məruzələrdə Qarabağda həyata keçirilən möhtəşəm quruculuq, inkişaf işləri barədə məlumat verildi, yeni layihələrin anonsu təqdim edildi”.

SİA-nın verdiyi məlumata görə, bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.

Tahir Budaqov bildirib ki, konfransın panel iclaslarında da Azərbaycanın möhtəşəm inkişaf yolunun davamı olaraq qarşıda duran məsələlərin müzakirəsi davam etdirilib: ”Əminliklə deməк olar ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu Azərbaycanın tərəqqisi, möhtəşəm inkişaf yolunun davamı Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra daha uğurlu olacaq, Azərbaycanı gələcəkdə yeni-yeni zəfərlərə, zirvələrə aparacaq”, - deyə YAP Sədrinin müavini vurğulayıb.

# Dmitri Savelyev: ”Zəmanəmizin görkəmli siyasətçisi İlham Əliyev Azərbaycan xalqını inamla tərəqqiyə aparır”

*Nadir istedada malik diplomat və zəmanəmizin görkəmli siyasətçisi İlham Əliyev Azərbaycan xalqını inamla tərəqqiyə aparır, ölkənin beynəlxalq arenada nüfuzunu möhkəmləndirərək öz gücünü və enerjisini Azərbaycanda dayanıqlı iqtisadi inkişafın və sosial sabitliyin təminatına sərf edir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev Azərbaycan Prezidentini yubileyi münasibətilə təbrik edərkən bildirib.*



”Ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin inkişafına İlham Heydər oğlunun verdiyi töhfə şəksiz və çox böyükdür. Mən səmimiyyətlə inanıram ki, Rusiya-Azərbaycan strateji tərəfdaşlığı ildən-ilə daha da möhkəmlənəcək və genişlənəcək. Bu əlamətdar gündə Azərbaycan Prezidentinə doğma ölkəsinin və onun vətəndaşlarının rifahını daha da yaxşılaşdırmaq naminə fəaliyyətində tükənməz enerji, möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayıram”, - deyə D.Savelyev vurğulayıb.

# “Rossiyskaya qazeta”: İlham Əliyev səmimi, mətbuat üçün açıq insandır

***“Rossiyskaya qazeta” nəşrində Stanislav Belyayevin ”Azərbaycan Prezidenti İlham Əliyevin 60 yaşı tamam oldu” sərlövhəli məqaləsi dərc edilib.***

AZƏRTAC xəbər verir ki, məqalə müəllifi bildirir ki, bu gün, dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyevin 60 yaşı tamam olur. dövlət xadimləri, elm və mədəniyyət adamları, Prezidentin həmkarları və dostları bu yubileyi qeyd edirlər. Müəllif Prezident İlham Əliyevin həyatından maraqlı faktlara istinadla yazır ki, Azərbaycan dövlətinin başçısı Rusiya ilə Azərbaycan arasında dostluğun möhkəmlənməsi, iqtisadi və mədəni əməkdaşlığın inkişafı üçün çox iş görüb.

S.Belyayev xatırladıb ki, İlham Əliyev o vaxt Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəhbəri olan Heydər Əliyevin ailəsində doğulub. Onun anası Zərifə Əliyeva həkim idi. Zərifə xanım sonralar ölkənin aparıcı oftalmoloqu, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olub.

İlham orta məktəbi bitirəndən sonra Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna (MDBMİ) daxil olub, daha sonra tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edib. Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Azərbaycan, rus, ingilis, fransız və türk dillərini bilir.

Məqalədə deyilir: ”1983-cü ildə o, Mehriban Paşayeva ilə evlənib. Ziyalı azərbaycanlı ailəsindən olan Mehriban İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib. Onların üç övladı var: qızları Leyla və Arzu, oğlanları Heydər.

İlham Əliyevin dövlətçilik sahəsində karyerası uğurlu olub. 2003-


Юбилей президента Азербайджана Ильхама Алиева, которому сегодня, 24 декабря, исполняется 60 лет, празднуют государственные деятели, люди науки и культуры, его коллеги и друзья. Вот некоторые интересные факты из жизни человека, который много лет возглавляет соседнее государство и многое сделал для укрепления дружбы, развития экономического и культурного сотрудничества между Россией и Азербайджаном.

c ü ildə Azərbaycan Prezidenti vəzifəsində atasını əvəz edib. Oğul Əliyev prezident seçkilərində dörd dəfə - 2003-cü, 2008-ci, 2013-cü və 2018-ci illərdə qalib gəlib”.

Müəllif vurğulayır ki, İlham Əliyev dinə dərin etiqad bəsləyir. O, üç dəfə Həcc ziyarətində olub. 2009-cu ildə onun adı ”Dünyanın ən nüfuzlu 500 müsəlmanı” adlı kitaba daxil edilib.

”Rossiyskaya qazeta”dakı məqalədə deyilir: ”İlham Əliyev səmimi, mətbuat üçün açıq insandır. Düz on il bundan əvvəl ”Hakimiyyət formulu” verilişində jurnalist Mixail Qusman ona belə bir sual verməşdi: ”Təsəvvür edin ki, Siz hansısa zaman maşınının köməyi ilə keçmişə qayıda bilərdiniz. Bu halda keçmişdəki hansı hadisələri bir daha hiss etmək istərdiniz?” İlham Əliyev bu sualın cavabında deyib: ”Fikrimcə, mən bunu istəməzdim, ona görə ki, bir dəfə yaşanmış, hətta ən sevindirici hadisə belə ikinci dəfə eyni effekti verməyəcək. Əgər belə bir imkan olsaydı, mən, məsələn, on il irəliyə getmək istərdim. Baxardım, görək düşündüklərim baş tutubmu və nə dərəcədə baş tutub. Bax bunu böyük məmnuniyyətlə edərdim”. O vaxtdan on il keçib və indi İlham Əliyev bir vaxt düşündüklərinin baş tutub-tutmaması sualına cavab verə bilər”.




# İtaliyalı parlamentarilər Prezident İlham Əliyevi yubileyi münasibətilə təbrik ediblər

***İtaliyanın müxtəlif siyasi partiyalarının təmsilçisi olan çoxsaylı parlamentarilər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi yubileyi münasibətilə təbrik ediblər.***

AZƏRTAC xəbər verir ki, İtaliyanın Deputatlar Palatasının sədr müavini, ”Yaşayan İtaliya” partiyasının sədri, deputat Ettore Rozatonun İtaliya mətbuatında dərc olunmuş təbrik mesajında deyilir: ”2020-ci ildə rəhbərlik etdiyim İtaliya nümayəndə heyəti Qarabağ müharibəsindən sonra azad olunmuş və dağıdılmış ərazilərə səfər edən ilk xarici nümayəndə heyəti olub və həmin səfər vaxtı Prezident İlham Əliyevlə Bakıda keçirdiyimiz görüş hafizəmə həkk edilib. Bu görüş həm də uzun illərdir ölkələrimizi bir-birinə bağlayan möhkəm dostluq və əməkdaşlıq münasibətlərini gücləndirmək üçün bir fürsət idi. Bu möhkəm bağlar qarşılıqlı institusional səfərlərin həyata keçirilməsi ilə siyasi, iqtisadi və mədəni səviyyələrdə daha da güclənməkdə davam edir”.

İtaliya Senatının Xarici əlaqələr və emiqrasiya daimi komissiyasının sədri, ”5 Ulduz Hərəkatı” partiyasının təmsilçisi, senator Vito Petroçelli Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edərək bildirir: Bu illər ərzində Prezident İlham Əliyev İtaliya ilə Azərbaycan arasındakı əlaqələri möhkəmləndirərək onları çoxölçülü strateji tərəfdaşlıq səviyyəsinə çatdırıb. Ölkələrimiz bütün sahələr üzrə ikitərəfli münasibətləri və çoxtərəfli müstəvidə əməkdaşlığı kəmiyyət və keyfiyyət baxımından daha da gücləndirə bilər. Əminəm ki, Prezidentin ölkəyə uzaqgörən rəhbərliyi uzunmüddətli perspektivdə Azərbaycanda və bütün Cənubi Qafqazda sülhün, sabitliyin, təhlükəsizliyin, davamlı inkişafın möhkəmləndirilməsində açar rolunu oynayacaq”.

İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri, ”Liqa” partiyasından olan senator Stefano Luçidi isə təbrik məktubunda isə deyilir: ”Prezident İlham Əliyev İtaliyanın dostu və etibarlı tərəfdaşı olan bir ölkənin rəhbəridir. Əldə olunmuş sülhün Azərbaycan xalqına və bütün regiona daha yaxşı rifah və əmin-amanlıq gətirməsi arzusu ilə təbriklərimi izhar edirəm”.

İtaliya parlamentində İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sədri, ”Liqa” partiyasından olan deputat Rossana Boldi təbrikində deyib: ”Azərbaycan Prezidenti İlham Əliyevə hörmətimi, ölkəsində və bütün Cənubi Qafqazda sülhə və davamlı inkişafa tam şəkildə nail olması arzumu çatdırıram”.

İtaliya Senatının ”5 Ulduz Hərəkatı” partiyasından olan üzvü, senator Canluka Kastaldi də dövlətimizin başçısını təbrik edən parlamentarilər arasındadır. O bildirib: ”Bizi böyük dostluğun ifadəsi olan strateji tərəfdaşlığın birləşdirdiyi ölkənin Lideri, Azərbaycan Prezidenti İlham Əliyevə yubileyi münasibətilə ən xoş arzularımı çatdırıram. Onun Azərbaycana prezidentliyi dövrü ölkəsinin nail olduğu mühüm yüksəliş üçün həlledici oldu. Azərbaycanda sülhün bərqərar olmasını təmin edən ölkənin ərazi bütövlüyünün bərpası Prezident İlham Əliyevin uzaqgörənliyinin təcəssümüdür”.




İtaliya Senatının ”İrəli İtaliya” partiyasından olan üzvü, senator Maria Rizzotti isə ürək sözlərini belə ifadə edib: ”Adı ölkəsinin son illərdəki əsaslı yüksəlişi və İtaliya ilə möhkəm dostluqla bağlı olan Azərbaycan Prezidenti İlham Əliyevin yubileyi münasibətilə ona ünvanlanan təbrik mesajlarına qoşulmaqdan böyük məmnunluq hissi duyuram. Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra həmin ölkəyə baş tutmuş ötənilki səfərim zamanı Prezident İlham Əliyevlə görüşmək imkanım oldu. Arzum budur ki, xalqlarımız və ölkələrimiz arasında dostluğun gücləndirilməsi üçün gələcək illərdə yeni imkanlar açılsın və artıq əldə edilmiş sülh bu gözəl diyarda daha da möhkəmlənsin”.

ATƏT-in Parlament Assambleyasında İtaliya nümayəndə heyətinin sədri, ”Liqa” partiyasından olan deputat Paolo Qrimoldi təbrikində vurğulayıb ki, Azərbaycanla dostluq enerji böhranı yaşanan bir dövrdə heç vaxt indiki qədər vacib olmayıb.

Təbriklərə qoşulan Senatın komissiya sədri, ”Yaşayan İtaliya” partiyasının təmsilçisi, senator Mauro Marino isə qeyd edib: ”Azərbaycanın mühüm məqsədlərə çatmasına töhfə verən, ölkəsi ilə İtaliya arasında möhkəm dostluq əlaqələrinin dəstəkləyicisi olan Prezident İlham Əliyevə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. Azərbaycana hər səfərim zamanı bu ölkənin sabitlik və tərəqqi yolu ilə necə irəliləməsinin, hər dəfə İtaliyaya daha da yaxınlaşmasının şahidi olmuşam. Əminəm ki, bu proses davam edəcək”.

İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sabiq sədri, senator Sercio Divina təbrikində bildirib: ”İtaliya-Azərbaycan tərəfdaşlığı xüsusən də qlobal enerji böhranının tüğyan etdiyi dövrdə getdikcə daha strateji xarakter alır. Ölkələrimiz arasındakı münasibətlər getdikcə möhkəmlənir və bu, xüsusən də ölkəmizlə münasibətə hər zaman inamla yanaşan Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsindədir”.




İtaliya Senatının ”İrəli İtaliya” partiyasından olan üzvü, senator Urania Papatheu təbrik ismarıcında qeyd edib: ”Azərbaycan Prezidenti İlham Əliyevə yubileyi münasibətilə ən səmimi təbriklərimi çatdırıram. Bu, mühüm tarixdir. Prezident İlham Əliyev ölkəsi üçün çox mühüm bir rəhbərdir. Onun fəaliyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanla İtaliya arasında dostluğun möhkəmləndirilməsini arzulayıram. Azərbaycan, əslində, ölkəmiz üçün etibarlı, strateji tərəfdaşdır, əsas neft, qaz və enerji təchizatçımızdır. Prezident İlham Əliyevə ölkəsində əldə olunan sülhün Azərbaycan xalqına daha yaxşı rifah, sülh və əmin-amanlıq gətirməsini arzu edirəm”. Parlamentarilərin təbrik mesajları İtaliyanın çoxsaylı kütləvi informasiya vasitələri, o cümlədən ”Nova News”, ”Insideover”, ”Kmetro0”, ”Agenparl”, ”AGI”, ”LaPresse”, ”9Colonne”, ”Eurasianews”, ”Giornale Diplomatico” və sair kimi mətbu orqanları tərəfindən yayılıb.

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə ”Qarabağ: Cənubi Qafqazdan dünyaya açılan yeni mənzərə” mövzusunda elmi-praktik konfrans keçirilib





***Dekabrın 24-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Qarabağ: Cənubi Qafqazdan dünyaya açılan yeni mənzərə" mövzusunda elmi-praktik konfrans keçirilib.YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyevin moderatorluğu ilə keçirilən konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.***









Konfransda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Cənubi Qafqaz regionunun lideri olan Azərbaycan bu gün dünyada həm dayanıqlı və dinamik inkişafa malik ölkə, həm etibarlı tərəfdaş, həm də güclü - nüfuzlu dövlət kimi tanınır. Bunu təmin edən amil isə milli maraqlara, müasir çağırışlara, aktual trendlərə və tendensiyalara, həmçinin yeni reallıqlara uyğun daxili və xarici siyasət kursunun həyata keçirilməsidir. Təbii ki, Prezident İlham Əliyevin Heydər Əliyev ideyalarına əsaslanan mütərəqqi siyasəti qətiyyətlə, inamla və uğurla davam etdirməsi Azərbaycanın davamlı nailiyyətlər qazanmasını şərtləndirir. Şübhəsiz ki, həm müstəqillik dövrünün, həm də xalqımızın çoxəsrlik, zəngin və şərəfli dövlətçilik tarixinin zirvə hadisəsi - ən parlaq səhifəsi Azərbaycanın ərazi bütövlüyünün, tarixi ədalətin bərpasına nail olunmasıdır. İnkaredilməz həqiqətdir ki, ötən müddət ərzində Azərbaycan Prezidentinin səmərəli iqtisadi siyasəti, məqsədyönlü ordu quruculuğu, həmçinin çoxvektorlu xarici siyasət strategiyası nəticəsində Azərbaycanın milli gücü artıb, qarşıda duran ən mühüm vəzifənin - Qarabağ probleminin həlli vəzifəsinin yerinə yetirilməsi üçün əlverişli və münbit şərait yaranıb. Başqa sözlə, görülən işlər Azərbaycana ərazi bütövlüyünün bərpası üçün çox mühüm üstünlüklər qazandırıb və son sözü döyüş meydanında Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu deyib - artıq torpaqlarımız azad, Vətənimiz bütövdür!

Qeyd olunub ki, Azərbaycan münaqişəni öz hərbi-siyasi resursları və milli gücü vasitəsilə həll etməklə yeni reallıqlar formalaşdırıb: ”Bu reallıqlar sırasında Cənubi Qafqaz regionunda yeni geostrateji situasiyanın yaranması xüsusi yer tutur. Yəni işğal faktına son qoyulub, separatizm aradan qaldırılıb, erməni faşizminin başı əzilib, işğalçı - təcavüzkar qüvvələr layiqincə cəzalandırılıb. Belə olan halda, regionda dayanıqlı sülh, etibarlı təhlükəsizlik və çoxtərəfli əməkdaşlıq üçün zəmin yaranıb. Başqa sözlə desək, Azərbaycanın yaratdığı reallıqlar Cənubi Qafqaz regionunu ziddiyyət və konfrontasiya deyil, əməkdaşlıq və inteqrasiya məkanına çevirir. Digər tərəfdən, Azərbaycanın geosiyasi iradəsi və strateji təşəbbüsü nəticəsində yaradılacaq Zəngəzur dəhlizi Cənubi Qafqazın tamamilə yeni simada dünyaya açılmasını mümkün edəcək. Bu nəqliyyat dəhlizinin reallaşması təkcə regionumuzda deyil, Asiyadan Avropaya doğru geniş coğrafi məkanda həm siyasi, həm ticari-iqtisadi, həm də mədəni-humanitar münasibətlər kontekstində olduqca faydalı və səmərəli nəticələr verəcək. Azərbaycan regionda kommunikasiyaların bərpası ilə əlaqədar prinsipial yanaşma ortaya qoyur - qətiyyətli mövqe sərgiləyir və şübhəsiz ki, bu dəhliz açılacaq, həm ölkəmiz, həm də digər region dövlətləri və regiondankənar qüvvələr yeni əməkdaşlıq platformasından faydalana biləcəklər”.

YAP Sədrinin müavini deyib ki, yeni reallıqlardan biri Azərbaycanın işğaldan azad olunmuş ərazilərində nəhəng quruculuq işlərinin aparılması və Böyük Qayıdış prosesinə hazırlıq işlərinin görülməsidir. Onun sözlərinə görə, Böyük Qayıdış 30 il ərzində torpaqları işğal altında olan dövlətin vətəndaşlarının, soydaşlarımızın, bütövlükdə, Azərbaycan xalqının ən böyük arzularından idi və bu gün biz buna nail oluruq: ”Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə ardıcıl, sistemli quruculuq işlərinin aparılmasını xüsusi diqqət mərkəzində saxlayır və bu istiqamətdə mühüm layihələr reallaşdırılır. ”Ağıllı kənd”, ”ağıllı şəhər” konsepsiyalarının gerçəkləşdirilməsi, beynəlxalq hava limanlarının inşası, səmərəli investisiya və inkişaf mühitinin yaradılması ilə bağlı addımlar və digər tədbirlər həm ölkəmizin sosial-iqtisadi inkişafına, həm Azərbaycanın regionda strateji mövqelərinin möhkəmlənməsinə, həm də ikitərəfli və çoxtərəfli xarici əlaqələrin inkişafına mühüm töhfələr verir. Yeri gəlmişkən, Prezident İlham Əliyevin ”Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Fərmanından irəli gələn vəzifələrin icrası, iqtisadi potensialdan istifadə olunması inkişafın sürətlənməsinə əlavə təkan olacaq. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və quruculuq, iqtisadi inkişaf və sosial yüksəlişlə əlaqədar tədbirlərin həyata keçirilməsi qarşıdakı dövrdə Azərbaycanın milli gücünün daha da artmasını təmin edəcək. Şübhəsiz ki, postmüharibə dövründə Böyük Qayıdışı yüksək səviyyədə təmin etmək əzmində və gücündə olan Azərbaycan dövləti Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə ardıcıl nailiyyətlər qazanmaqla həm şanlı Qələbəmizin nəticələrinin siyasi, iqtisadi, ideoloji və diplomatik müstəvidə daha da möhkəmləndirilməsinə, həm də yeni nailiyyətlərin qazanılmasına müvəffəq olacaq!”.

YAP Mərkəzi Aparatının rəhbəri xüsusi vurğulayıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən işlər doğma Qarabağımızın dirçəlişinə, inkişafına, intibahına, həmçinin milli yaddaşımızın bərpasına mühüm töhfədir. Heydər Əliyev Fondu tərəfindən işğaldan azad edilmiş ərazilərimizdə tarixi, dini və mədəni abidələrimizin bərpası bu baxımdan xüsusi qeyd edilməlidir. Eyni zamanda, Fondun təşkilatçılığı ilə ”Xarıbülbül” musiqi festivalının, Vaqif Poeziya Günlərinin keçirilməsi xüsusi tarixi, siyasi, ictimai və mədəni əhəmiyyətə malikdir.

Ardı Səh. 6

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Qarabağ: Cənubi Qafqazdan dünyaya açılan yeni mənzərə" mövzusunda elmi-praktik konfrans keçirilib










Əvvəli-Səh-5

Bu tədbirlər Azərbaycanın zəngin tarixi-mədəni ənənələrini bir daha dünyaya nümayiş etdirməklə yanaşı, xalqımızın tolerantlıq və multikulturalizm dəyərlərinə sadiqliyini, ölkəmizdə müxtəlif dinlərə və millətlərə mənsub olan insanların vahid ailə kimi sülh, təhlükəsizlik şəraitində mehriban birgəyaşayışa malik olduğunu növbəti dəfə təsdiqlədi. Bütövlükdə, Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə mədəni quruculuq işlərinin aparılması qalib və bütöv Azərbaycanın şanlı keçmişimizlə müasir reallıqlarımızın vəhdətini təşkil edən yeni simada dünyaya təqdim olunması baxımından mühüm əhəmiyyət daşıyır.

"Nəticə etibarilə, bu gün Azərbaycan regionun lider dövləti kimi Cənubi Qafqazdan dünyaya yeni reallıqlar təqdim edir, Prezident İlham Əliyevin təşəbbüsləri və strateji fəaliyyəti nəticəsində bölgədən beynəlxalq aləmə yeni geosiyasi mənzərə açılır. Bu, eyni zamanda, Azərbaycanın qarşısında yeni perspektivlərin yaranması deməkdir", - deyə Tahir Budaqov vurğulayıb.

Konfransda Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş (Şuşa rayonu istisna olmaqla) ərazilər üzrə xüsusi nümayəndəsi Emin Hüseynov "İşğaldan azad edilmiş ərazilərin bərpası və "Böyük Qayıdış" proqramı" mövzusunda çıxış edib. E.Hüseynov bildirib ki, Azərbaycan xalqı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bizim igid oğullarımız, rəşadətli Azərbaycan Ordusu 44 günlük Zəfər müharibəsinin nəticəsi olaraq şanlı qələbəsini əldə edib: "30 ildən sonra Azərbaycan xalqı öz doğma torpaqlarına qovuşdu. Ölkəmizin ərazi bütövlüyü, suverenliyi bərpa edildi. Bu şanlı qələbə regionda liderliyini möhkəmləndirən Azərbaycan üçün yeni inkişaf perspektivləri də yaratmış olur. Belə ki, işğaldan azad edilmiş ərazilərin bərpası, həmin ərazilərdə dayanıqlı sosial və iqtisadi inkişafın təmin edilməsi hökumətin ən mühüm hədəflərindən birinə çevrilib".

Xüsusi nümayəndə qeyd edib ki, bu günə qədər bir çox ölkələrdə postmünaqişə əraziləri bərpa edilib, insanlar öz yurdlarına qayıdıblar: "Bu ölkələrin təcrübəsindən Azərbaycanda da bu və ya digər formada istifadə etmək mümkündür. Lakin bunu da nəzərə almaq lazımdır ki, hər bir münaqişənin yaranması, onun müddəti, konteksti, dayanıqlılıq səviyyəsi bir-birindən fərqlənir. Qeyd olunmalıdır ki, 30 il ərzində mənfur düşmənin bizim doğma torpaqlarımızda etdiyi vandallığın dünyada analoqu yoxdur. Burada ermənilərin törətdiyi vəhşiliyin iki məqamını xüsusilə qeyd etmək istəyirəm. Bu, dağıntının miqyası və total etnik təmizləmədir. Məhz Qarabağda düşmən bizim tarixi mədəni abidələrimizə, iqtisadiyyatımıza, ekologiyamıza elə bir zərbə vurub ki, bunun fəsadlarını aradan qaldırmaq üçün uzun illər tələb olunacaq. Ağdam, Füzuli, Cəbrayıl kimi rayonlarımızda piyada əleyhinə, tank əleyhinə minaların, partlamamış hərbi sursatların çoxluğu elə bir səviyyədədir ki, dünyada bunun analoqu yoxdur. Bu 30 illik işğal qlobal proseslər fonunda dünya iqtisadiyyatının elə bir dövrünə təsadüf etdi ki, bu müddət ərzində çox böyük hadisələr baş verib. Bunların sırasında əsasən inqilabi-texnoloji prosesləri vurğulamaq istəyirəm. 30 illik dövr orta əsrlərdə baş versəydi, bunun fəsadları o qədər də bilinməzdi. Amma bu dövrdə dünya iqtisadiyyatında çox böyük inqilabi dəyişikliklər, IV Sənaye İnqilabı baş verdi".

E.Hüseynov deyib ki, tamamilə dağıdılmış ərazilərin bərpası böyük bir prosesdir və bu baxımdan, prosesin düzgün təşkil olunması onun nəticələri qədər önəmlidir: "Bu prosesi təşkil etmək üçün Azərbaycan hökuməti böyük bir innovasiya tətbiq edir. Bu innovasiyanı, əslində, bir çox ölkələr öyrənmək istəyir və bununla maraqlanır. Prezident İlham Əliyev quruculuq işlərini vahid strategiya əsasında həyata keçirmək məqsədi ilə 24 noyabr 2020-ci ildə xüsusi Əlaqələndirmə Qərargahı yaradıb".

"İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, ölkə iqtisadiyyatına inteqrasiyası, dayanıqlı və tarazlı inkişafının təmin olunması, yüksək standartlara cavab verən sosial rifaha nail olunması məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı İnkişafı Dövlət Proqramı"nın layihəsi hazırlanıb. Qarabağın yenidən qurulması və orada iqtisadi inkişafın təmin edilməsinin əsas məqsədlərindən biri də müharibədən əvvəl öz doğma yurdlarından didərgin düşmüş məcburi köçkünlərin Qarabağa qayıtmasıdır. Bu, bizim ən ümdə vəzifəmizdir. Bərpa və yenidən qurma işlərinin həcmi, eləcə də yeni salınacaq yaşayış məntəqələrinin miqyası məhz Qarabağa qayıdacaq məcburi köçkünlərin sayını artırır", - deyə E.Hüseynov vurğulayıb.

Konfransda "Azad olunmuş ərazilərdə aqrar sahənin inkişaf perspektivləri və innovativ yanaşmalar" mövzusunda çıxış edən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimov bildirib ki, torpaqlarımızın işğaldan azad olunması 30 illik fasilədən sonra bu diyarlara yeni həyat, dirçəliş ümidi bəxş edib. Nazir qeyd edib ki, ermənilər 30 il ərzində işğal altında qalan ərazilərimizə, sözün əsl mənasında, zülm ediblər. Torpaqlarımız ermənilər tərəfindən barbarlıqla istismar edilib. Bu torpaqlarda ekoloji terror törədilib. Ona görə də cənab Ali Baş Komandan işğal altında olan torpaqlarımızı təkcə azad etməyib, həm də zülmdən qurtarıb, o torpaqlara böyük mərhəmət, lütf bəxş edib. Təsadüfi deyil ki, cənab Prezidentin azad olunmuş ərazilərimizlə bağlı ilk tapşırığı bu torpaqların əkilib becərilməsi ilə bağlı olub. Bu tapşırığa əsasən müharibənin başa çatdığı ilk günlərdən etibarən Kənd Təsərrüfatı Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının gələcək inkişafının planlaşdırılmasına başlanılıb".

İ.Kərimovun sözlərinə görə, torpaqlarımızın azad edilməsi bizim qarşımızda bu ərazilərin aqrar potensialından səmərəli istifadə etmək, məhv edilmiş kənd təsərrüfatı infrastrukturunu yenidən qurmaq, bu torpaqlara yeni həyat vermək vəzifəsi qoyub: "Qarşımıza qoyulan vəzifələrin uğurla icra olunması üçün quruculuq işlərində ən müasir aqrar innovasiyalar tətbiq olunur. Bunu zəruri edən təkcə aqrar sahədə daha uğurlu nəticələr əldə etmək deyil. İnnovativ yeniliklər həm də qlobal iqlim dəyişikliyinin təbiətə, kənd təsərrüfatına mənfi təsirlərini minimuma endirməyə kömək edir. Torpaqlarımızın işğaldan azad olunması bölgədə kənd təsərrüfatının bərpası və yenidən inkişaf etdirilməsi üçün yeni imkanlar yaradıb. Əkin dövriyyəsinə yeni ərazilərin daxil edilməsi məhsul istehsalını artırmış olacaq, zəngin örüş, otlaq və yaylaq potensialı heyvandarlığın inkişafına böyük təkan verəcək. Azad olunmuş ərazilərdə quruculuq işləri "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyasına əsasən aparılır. Artıq Zəngilan rayonunda ilk "Ağıllı kənd"in inşası başa çatmaq üzrədir. Bu kənd azad olunmuş ərazilərə Qayıdışın ilk məntəqəsi olacaq. Kəndin inşasında çoxsaylı innovativ yanaşmalar tətbiq olunub. Kənddə enerjiyə tələbat "Yaşıl enerji" sistemi ilə təmin ediləcək. Dayanıqlı enerji təminatı Həkəri çayı üzərində inşa olunan "Arximed" qurğusu tipli su elektrik stansiyaları vasitəsilə həyata keçiriləcək. "Arximed" qurğusu vasitəsilə alınan enerji hesabına kənd öz enerji tələbatını ödəyəcək. "Ağıllı kənd"də evlərin dam hissəsində yerləşdirilən vakum Günəş kollektorları vasitəsilə enerji toplanaraq evlərin və suyun qızdırılmasında istifadə ediləcək. Evlərdə quraşdırılacaq anod-katod sistemləri otaqları daha az enerji sərfiyyatı ilə qızdırmağa imkan verəcək. "Ağıllı kənd"də, həmçinin "Ağıllı kənd təsərrüfatı" sistemi üzrə camışçılıq ferması, "Ağıllı ictimai ferma" istifadəyə veriləcək, emal müəssisələri yaradılacaq, dəyər zənciri formalaşdırılacaq. Artıq cənab Prezidentin iştirakı ilə Füzuli rayonunun Dövlətyarlı kəndində sayca ikinci "Ağıllı kənd"in təməli qoyulub. Dövlətyarlı kəndində alternativ enerji həlləri məqsədilə Günəş paneli tarlası salınacaq. Kənddə ağıllı akvakultura sistemlərinin tətbiqi nəticəsində ixracyönümlü balıqçılıq və quşçuluq təsərrüfatlarının qurulması, kartofçuluq üzrə dəyər zəncirinin formalaşdırılması da nəzərdə tutulur".

Nazirin sözlərinə görə, bölgədə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının və Ağdam Sənaye Parkının fəaliyyətə başlaması aqrar emal sənayesinin inkişafını təşviq edəcək: "Bu Sənaye Parklarında yaradılacaq aqrar emal müəssisələri bölgədə kənd təsərrüfatının davamlı inkişafına əhəmiyyətli təsir göstərəcək. Kənd Təsərrüfatı Nazirliyinin bölgədə apardığı bərpa-quruculuq prosesində iştirakı "Ağıllı kəndlərin" inşası ilə yekunlaşmır. Artıq faktiki əkin sahələri və bağlar barədə peyk məlumatları təhlil olunub, vektorlaşdırılaraq xəritələşdirilib. Mina və hərbi sursatlardan təmizlənmiş ərazilərdə payızlıq və yazlıq əkinlər aparılır. Bölgədə taxılçılıq, pambıqçılıq, tütünçülük, üzümçülüyün inkişafı üçün də çox böyük potensial mövcuddur".

Konfransda "Azərbaycan təhsili: yeni çağırışlar, perspektivlər" mövzusunda çıxış edən Azərbaycan Respublikasının Təhsil naziri Emin Əmrullayev bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi təhsil sahəsində də yeni bir səhifə açıb. Onun sözlərinə görə, işğaldan azad edilən ərazilərdə təhsil infrastrukturunun qurulması ilə yanaşı, tarixi hadisənin Azərbaycanda ümumtəhsil sisteminin daha da yaxşılaşmasında, təkmilləşməsində rolu olacaq: "Çünki hər bir sistemi irəli aparan lokomotiv olmalıdır. Vaxtilə işğal altında olan ərazilərimizdə təhsil infrastrukturu da tamamilə dağıdılıb. Ona görə də qarşıda bizi ciddi quruculuq işləri gözləyir. Qarabağda yaradılacaq məktəblər, yəqin ki, Azərbaycan təhsilinin məzmununda və mahiyyətində dəyişikliklər etməyə imkan verəcək. Bütün bu məktəblər mahiyyətinə, dizaynına görə ən müasir infrastruktura malik məktəblər olacaq. İnfrastrukturla yanaşı, məktəblərin içərisində olan ab-hava, məzmun yenidən və tamamilə fərqli müasir tələblərə cavab verən standartlara uyğun qurulmalıdır. Zaman sürətlə dəyişdiyindən təhsilin də məzmununun dəyişməsinə ehtiyac var. Bu mənada, azad edilmiş ərazilərə Böyük Qayıdışın başlaması fonunda təhsildə də yeni məzmunun, yeni yanaşmaların həmin məktəblərdə bərqərar olması qarşıda duran əsas hədəflərdəndir. Həmin məktəblərdə şagirdlərə yeni məzmunlu müasir təhsilin verilməsinə imkan yaranacaq. Bu mənada, işğaldan azad edilmiş ərazilərdə qurulacaq məktəblərdə son dövrlər ərzində rəqəmsal bacarıqlar və STEAM kimi layihələrin daha geniş tətbiqi nəzərdə tutulur".

Ardı Səh. 7

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Qarabağ: Cənubi Qafqazdan dünyaya açılan yeni mənzərə" mövzusunda elmi-praktik konfrans keçirilib

Əvvəli-Səh-6

Başqa məsələ işğaldan azad edilmiş ərazilərdə aparılan infrastruktur, tikinti, quruculuq işləri əmək bazarında ciddi aktivlik yaradacaq. Bu görülən işlərin səmərəliliyini artırmaq üçün ixtisaslı kadrların olması vacibdir".

Nazirin sözlərinə görə, bu gün Azərbaycanda təhsil alan şagirdlərin, tələbələrin bir çoxunun gələcək peşə fəaliyyəti azad olunmuş ərazilərdəki işlərlə bağlı olacaq: "Həmin ərazilərdə peşə təhsilinə olan həvəs və tələb artacaq. Çünki on minlərlə ixtisaslı mütəxəssisin hazırlanmasında peşə təhsilini ən qısa yol hesab edirik. Son illər ali təhsil müəssisələrinə qəbul olunan abituriyentlərin sayında da ciddi müsbət dinamika var. Lakin keyfiyyət faktorunu aşağı salmadan daha çox abituriyentin ali təhsil alması qarşıda duran hədəflərdən biridir. Azad olunmuş ərazilərdə yeni ali təhsil müəssisələrinin yaradılması müəyyən mənada iki hədəfə çatmağa qısa yol kimi görünə bilər. Bir tərəfdən həmin ərazilərdə universitetlərin açılması, gənc nəslin orada yaşaması, eyni zamanda, ölkədə ali təhsillə əhatəlilik faizinin daha da artmasına səbəb ola bilər".

E.Əmrullayev deyib ki, Qarabağda icra olunan "Ağıllı şəhər" və "Ağıllı kənd", eləcə də "Yaşıl enerji" layihələri öz-özülüyündə elmi araşdırmalar, innovasiyalar tələb edir. Bu tipli elmi tədqiqatların olması ali təhsil müəssisələrin qarşısında yeni imkanlar açır.

Konfransda daha sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev "Rəqəmsal inkişaf dövründə yeni infrastrukturu" mövzusunda çıxış edib. R.Nəbiyev bildirib ki, işğaldan azad edilmiş ərazilərdə infrastrukturun bərpa edilməsi rəqəmsal transformasiyanın və innovasiyaların inkişafını təmin edəcək ən başlıca amillərdəndir. Bu, bizə imkan verəcək ki, dövlət idarəçiliyində şəffaflığın, effektivliyin, innovasiyaların tətbiqinə nail ola bilək. Onun sözlərinə görə, ölkənin bütün ərazisində olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurda da rəqəmsal transformasiya prosesinə başlamaq üçün insan kapitalının gücləndirilməsi üzrə işlər aparılır. Rəqəmsal transformasiya, "Ağıllı şəhər" və "Ağıllı kənd"lərdə bu infrastrukturdan istifadə üçün peşakar kadrların yetişdirilməsi vacibdir.

Nazir qeyd edib ki, işğaldan azad olunmuş ərazilər ötən bir il ərzində 52 faiz mobil və internet şəbəkəsi ilə əhatə olunub: "Bu inkişaf prosesində yalnız 2016-cı ildə ölkə üzrə mobil şəbəkəni işğal olunmuş ərazilər istisna olmaqla 95 faiz təmin etməyə nail olmuşduq. Amma qısa müddətdə azad olunmuş ərazilərdə 52 faizlik nəticə əldə etməyimiz bir daha Azərbaycanın iqtisadi potensialından xəbər verir. Gələn ildən başlayaraq bu sahənin inkişafına əhəmiyyətli sərmayə yatıracağıq. Nəqliyyat infrasturkturu da bu inkişafı təmin edəcək ən başlıca amillərdəndir.

Nəqliyyat infrastrukturunun yaradılmasına vahid ölkə prizmasından yanaşılır. Dövlət başçısının tapşırığına əsasən, ölkədə vahid nəqliyyat və logistika konsepsiyası hazırlanıb. Bu konsepsiyanın hazırlanmasında aidiyyəti dövlət qurumlarının iştirakı ilə yanaşı, beynəlxalq mütəxəssislər də prosesə cəlb edilib. Konsepsiyada hazırda işğaldan azad olunmuş ərazilərdə inşa edilən yolların stress testlərinin nəticələri əks olunub. Stress testləri göstərir ki, azad edilmiş ərazilərdə 1441 km uzunluğunda çəkiləcək yollar 2041-ci ildə də ən pik saatda təxminən yalnız 61 faiz yüklənə biləcək. Bu baxımdan, dünya rekordu isə təxminən 80 faizdir. Bu, bir daha Azərbaycan hökumətinin sözügedən ərazilərdə gördüyü işləri hansı koordinasiya ilə, hansı planlama ilə icra etməsinin bariz nümunəsidir".

Nazir işğaldan azad olunmuş ərazilərin bərpasında yeni ideyalar, yeni bazarlar, yeni məhsullar və yeni xidmətlər yaradılmasının təşviq edilməsinə zərurət olduğunu söyləyib: "Bununla bağlı artıq Azərbaycanda rəqəmsal transformasiya və innovativ inkişaf konsepsiyası hazırlanmaqdadır. Bütün bu məqamlar həmin transformasiya sənədində öz əksini tapir".

R.Nəbiyev, həmçinin Zəngəzur dəhlizinin təkcə nəqliyyat sahəsində deyil, həm də digər sferalarda, innovasiya sahəsində də yeni imkanlar yaradacağını vurğulayıb.

Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov isə konfransda "Azərbaycan iqtisadiyyatı və yenidən dirçələn Qarabağ" mövzusunda çıxış edib. S.Ələkbərov bildirib ki, 30 il erməni işğalında olmuş ərazilərimizdə 600-ə yaxın sənaye və kənd təsərrüfatı müəssisəsi viran qoyulub, 1 milyon hektardan çox yararlı torpaq, o cümlədən təxminən 128 min ha suvarılan torpaq minalar və partlamamış hərbi sursatlarla çirkləndirilib və ya digər səbəblərdən bu gün istifadəyə yararsızdır: "Halbuki işğala qədər bu bölgənin iqtisadiyyatı kifayət qədər inkişaf etmişdi və ölkə üzrə üzüm, ət və süd istehsalının böyük bir hissəsi bu ərazilərin payına düşürdü. Təsdiq olunmuş 5 Milli Prioritetdən biri "İşğaldan Azad olunmuş Ərazilərə "Böyük Qayıdış"dır və bu prioretet üzrə 2 strateji məqsəd müəyyənləşdirilib. İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" dayanıqlı məskunlaşma çərçivəsində həmin ərazilərdə təhlükəsizliyin təmin olunmasını, ilk növbədə, minalardan və partlamamış hərbi sursatlardan təmizləmə işlərinin başa çatdırılmasını, əhalinin reinteqrasiyasının təmin olunması üçün normativ-hüquqi bazanın təkmilləşdirilməsini və yeni idarəetmə sisteminin yaradılmasını tələb edir. Ağdam Sənaye Parkında sosial zonanın təşkili yekunlaşıb. Eləcə də Araz Vadisi İqtisadi Zonası Sənaye Parkı yaradılıb, artıq bu parkın ilk rezidentlərindən biri, Rusiya Federasiyasının "Kamaz" ASC ilə "Gəncə Avtomobil Zavodu" istehsalat Birliyinin birgə servis mərkəzinin təməli qoyulub. Bu sənaye parklarında fəaliyyət göstərmək istəyən investorlarla fəal iş aparılır. Qarabağın və Şərgi Zəngəzurun bərpa olunan enerji mənbələrindən, ekoloji təmiz və səmərəli yaşıl texnologiyalardan maksimum istifadə etməklə yaşıl enerji zonasına çevrilməsi üçün tədbirlər görülür".

S.Ələkbərov diqqətə çatdırıb ki, işğaldan azad olunmuş ərazilərdə iqtisadi fəaliyyətin canlandırılmasına dəstək məqsədilə ölkə başçısının göstərişi ilə bu ərazilərdə fəaliyyət göstərəcək sahibkarlara mövcud vergi güzəştlərindən əlavə digər vergi və sosial güzəştlərin də verilməsi, onların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi ilə bağlı təkliflər hazırlanır: "Həmçinin "İşğaldan azad edilmiş ərazilərin



2022-2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"nın layihəsi hazırlanaraq aidiyyəti üzrə təqdim olunub. Lakin təbiidir ki, bu istiqamətlərdə görüləsi işlərimiz daha çoxdur və hər birimiz elə etməliyik ki, bütün sahələrdə innovativliyi təmin etməklə həyata keçirdiyimiz işlərin səmərəliliyini artıraq, işğaldan azad olunmuş ərazilərimizdə normal həyat şəraitini bərpa etməklə yanaşı, həmin əraziləri nümunəvi, əhalimiz və turistlər üçün cəlbedici bir bölgəyə çevirək. Təbiidir ki, işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının ölkə iqtisadiyyatına reinteqrasiya olunması iqtisadiyyatımızın nəzərəçarpacaq dərəcədə artmasına öz töhfəsini verəcəkdir. Lakin bu, sadəcə bir artım olmamalıdır. Bu ərazilərdəki münbit torpaqlar və iqlim şəraiti, hər şeyin sıfırdan başlayaraq qurulması bizə imkan verir ki, işğaldan azad olunmuş ərazilərimizdə ən yeni texnologiyalardan, innovativ üsullardan geniş istifadə etməklə istehsal olunacaq məhsulların yüksək rəqabətə davamlı, əsasən ixrac yönümlü olmasını və çox hissəsinin xaricə ixrac olunmasını təmin edək".

Konfransda "Qarabağa qayıdış: Biznes üçün yeni imkanlar və perspektivlər" mövzusunda çıxış edən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov bildrib ki, Vətən müharibəsində qazandığımız qələbə nəticəsində torpaqlarımızın işğaldan azad olunması bizə böyük qürur yaşatdı: "Bir il öncə bu tarixi canlı yaşadıq, zəfər xəbərlərini hər gün sevinclə dinlədik. Bu gün isə artıq Qarabağın bərpası və orada yaradılacaq iş imkanlarını müzakirə edirik. Böyük qələbədən dərhal sonra yerli və xarici sahibkarlardan çoxsaylı təkliflər daxil olmağa başlamışdı. Həmin təkliflər əsasında KOBİA-da məlumat bazası - reyestr formalaşdırıldı. Ötən ilin dekabr ayından başlayaraq Agentlik tərəfindən işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlıq subyektlərinin müvafiq sahələr üzrə müraciətləri bu günə qədər də davam edir. Nəticə olaraq bu günədək işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlardan KOBİA-ya 929 müraciət daxil olub. Bunlardan 441 müraciət investisiya layihələri, 488-i isə digər iş və xidmətlərin, əsasən podrat əsaslı layihələrin həyata keçirilməsi ilə bağlı olub. Müraciətlərin 27%-i tikinti işlərini, 27%-i ticarət və xidmət sahəsini, 20%-i sənayeni, 18%-i kənd təsərrüfatını və digər 8%-i turizm, səhiyyə, təhsil, mədəniyyət, nəqliyyat və logistika sahələrini əhatə edir. Müraciətlərin 111-i Şuşa, 109-u Ağdam, 62-si Füzuli, 49-u Kəlbəcər, 25-i Xocavənd, 25-i Cəbrayıl, 28-i Zəngilan, 21-i Qubadlı və 13-ü Laçına investisiya yatırılması ilə bağlıdır. Həmçinin 485 müraciətdə Qarabağın istənilən ərazisində biznes qurmaqda maraqlı olduğu bildirilir. Xarici investorlardan daxil olmuş müraciətlərə gəldikdə isə ümumilikdə 31 ölkə üzrə 305 layihə daxil olub. Bunlardan Türkiyə, İran, Rusiya, İsrail və Qazaxıstandan olan müraciətlər say olaraq üstünlük təşkil edir".

O.Məmmədovun sözlərinə görə, hazırkı mərhələdə ümumi sayı 44 olmaqla təsdiq edilmiş investisiya layihələrinin həcmi 272 milyon manat təşkil edir. Artıq yaradılmış iş yeri 568 nəfər olmaqla 33 layihə fəaliyyətə başlayır, 11-nin isə icrası davam edir. 44 layihədən 42-si yerli investorların payına düşür.

"Bununla yanaşı, digər qurumlarla birgə yeni layihələrin icrasına start vermişik. Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsi çərçivəsində Aqrar Xidmətlər Agentliyi, KOBİA və Zəngilan Rayon İcra Hakimiyyətinin dəstəyi ilə sahibkarın özünüməşğulluq xidmətindən faydalanması üçün sorğular təşkil edilib və yerli əhalidən ibarət siyahı tərtib edilib. Təsdiq olunmuş siyahı üzrə Zəngilan rayonundan olan 30 vətəndaşa KOBİA tərəfindən müxtəlif istiqamətlər üzrə təlimlər keçirilib və növbəti mərhələdə vətəndaşların Dövlət Məşğulluq Agentliyi tərəfindən avadanlıqlarla təmin edilməsi gözlənilir. Bütün bunlarla yanaşı, Qarabağın və Şərqi Zəngəzurun iqtisadi potensialı və sərmayə imkanlarına dair aktiv təbliğat işlərinin aparılması fəaliyyət gündəliyimizdə prioritet təşkil edir. İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət KOB subyektlərinə bir sıra əhəmiyyətli imtiyazlar verməklə yanaşı, həm də bölgənin iqtisadi potensialının reallaşdırılması istiqamətində mühüm biznes layihələrin icrasına şərait yaradacaq. KOBİA olaraq işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq və investisiya yatırmaq istəyən sahibkarlara lazımi informasiya, əlaqələndirmə və məsləhət xidmətləri göstərilməsini böyük məmnuniyyətlə həyata keçirəcəyik", - deyə O.Məmmədov vurğulayıb.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev isə konfransda "Zəfərdən Dirçəlişə: Tarixi qələbədən sonra yeni yaranan reallıq" mövzusunda çıxış edib. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağda dağıntıların miqyasının nə qədər böyük olması faktının üzə çıxdığını deyən R. Hacıyev bildirib: "İşğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin təşkili, dayanıqlı iqtisadiyyatın qurulması, ümumilikdə Qarabağın dirçəlişi bütün Azərbaycan ictimaiyyəti və dövlət qurumları qarşısında duran əsas vəzifələrdən biridir. Qarabağ Dirçəliş Fondu yarandığı gündən etibarən minlərlə həmvətənlərimiz və şirkətlər birlik nümayiş etdirərək Qarabağda aparılacaq işlərə dəstək göstərmək məqsədilə milyonlarla vəsait ianə ediblər. Ölkə rəhbəri tərəfindən qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsi üçün dövlətin, cəmiyyətin və diasporumuzun səylərininin birləşdirilməsi olduqca vacibdir. Bu, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsinə və nəticədə Böyük Qayıdışın daha qısa zamanda həyata keçirilməsinə imkan yaradacaq. Dağıdılmış infrastrukturun, yaşayış binalarının, sosial obyektlərin, eləcə də sənaye və kənd təsərrüfatı obyektlərinin bərpası təkcə əmlakın əvvəlki halına gətirilməsi demək deyil, bu, həm də əhalinin həyat keyfiyyətini yaxşılaşdırmaq və regionun iqtisadi məhsuldarlığını artırmaq üçün yeni standartların, texnologiyaların və bütövlükdə innovativ yanaşmaların tətbiqi üçün fürsətlər deməkdir. Bu baxımdan, bərpa işlərinin aparılmasında Prezident İlham Əliyevin müəyyən etdiyi ən müasir standartların və innovativ həllərin tətbiqi konsepsiyası xüsusi əhəmiyyət kəsb edir".

R.Hacıyev işğaldan azad edilmiş ərazilərdəki tarixi abidələrin bərpasında Qarabağ Dirçəliş Fondunun müvafiq dövlət qurumları və Heydər Əliyev Fondu ilə sıx əməkdaşlıq etdiyini xüsusi vurğulayıb: "Bizim Heydər Əliyev Fondu ilə bu istiqamətdə sıx əməkdaşlığımız var. Fond işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın və təbiət obyektlərinin bərpası üzrə birgə tədbirlərin həyata keçirilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Memorandum imzalayıb. Digər təşkilatlar da bu Memoranduma qoşularaq qeyd olunan istiqamətlər üzrə əməkdaşlıq edə bilərlər. "Paşa Holdinq" və "Universal Qrup" şirkətlərinin dəstəyi ilə "Zəfərdən dirçəlişə" şüarı altında Zəngilanda meşə massivinin salınması layihəsinə start verilib. Bu layihə çərçivəsində 30 min ağacın əkilməsi planlaşdırılır".

O, qarşıdakı dövrdə Fondun icra edəcəyi layihələrin daha çox olacağını da diqqətə çatdırıb.

Yekunda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov konfransda ölkəmizin inkişafı və qarşıda dayanan hədəflərlə bağlı ətraflı məruzələrin təqdim olunduğunu bildirib. O, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla Zəfərə doğru irəliləyən cənab Prezident İlham Əliyevi 60 illik yubileyi münasibətilə Yeni Azərbaycan Partiyasının üzvləri adından təbrik edib, dövlətimizin başçısına uzun ömür, möhkəm cansağlığı, Azərbaycanın gələcək möhtəşəm zəfərlər qazanması uğrundakı fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayıb. Daha sonra Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə konfrans iştirakçıları adından Müraciət qəbul olunub.

Qeyd edək ki, konfrans Milli Məclisin deputatları Fatma Yıldırım və Ramin Məmmədovun moderatorluğu ilə "II Qarabağ savaşının yaratdığı geostrateji reallıq yeni dünya nizamı kontekstində" və Milli Məclisin deputatı Hikmət Babaoğlu və Odlar Yurdu Universitetinin kafedra müdiri Elşad Məmmədovun moderatorluğu ilə "Qarabağ və yeni regional iqtisadi mənzərə: çağırışlar, perspektivlər" mövzusunda panel iclaslarla davam edib.

Panel iclaslarında mövzularla bağlı çıxışlar dinlənilib, iştirakçıların çoxsaylı sualları cavablandırılıb.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# İlham Əliyev qlobal liderdir- Rusiyanın nüfuzlu xadimləri Azərbaycan Prezidenti haqda - RƏYLƏR

*Rusiyanın nüfuzlu siyasətçiləri və mədəniyyət xadimləri bu gün 60 illik yubileyini qeyd edən Azərbaycan Prezidenti İlham Əliyev haqda fikirlərini "Moskva-Baku" platformasına bildiriblər. Materialı oxucularımıza təqdim edirik.*

## Valentina Matvienko, Rusiya Federasiya Şurasının sədri:



- Azərbaycan Respublikası postsovet məkanında ən dinamik inkişaf edən ölkələrdən biridir. Makroiqtisadi sabitliyə nail olunub. Yeni iş yerləri yaradılır. Bütün bunlar ölkədə aparılan islahatların nəticəsidir.

Azərbaycan Prezidenti İlham Əliyev və komandası ölkənin siyasi, iqtisadi, sosial, mədəni reallıqlarına və ehtiyaclarına cavab verən transformasiyaları hazırlayıb həyata keçirməyə nail olub. Şübhəsiz ki, bu proseslər Rusiya ilə Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlıq üçün daha da geniş perspektivlər açır.

Biz Azərbaycan rəhbərliyinin öz vətəndaşlarına rus dilini öyrənmək və rus mədəniyyəti ilə tanış olmaq imkanları yaratmaq səylərini yüksək qiymətləndiririk. Azərbaycan mediasının təxminən 15 faizi rusdillidir. Rus dilində kitablar Rusiyadan gətirilərək Respublikada çap olunur. Teatrlar rus dilində tamaşalar verir və çox populyardır.

## SSRİ Xalq Artisti Alla Puqaçova:



- İlham Heydəroviçi doğum günü münasibətilə ürəkdən təbrik etməkdən məmnunam. Ona cansağlığı və təbii ki, səbr arzulayıram. Çünki öz xalqına xidmət etmək kimi bir şey bəzən problem yaradır. Bütün problemləri həll etmək üçün kifayət qədər güc olsun.

Azərbaycan Prezidenti İlham Əliyev mənə "Dostluq" ordenini təqdim edib. Bu mükafat ruhumu istiləşdirir. Mən Azərbaycanı sevirəm, orada tez-tez olmuşam, uğur qazanmışam. Orada elə qonaqpərvər və istiqanlı insanlar yaşayır ki, bu səfərləri unutmaq, sadəcə olaraq, mümkün deyil.

Qoy ölkələrimiz arasında dostluq möhkəmlənsin, Azərbaycan çiçəklənsin- ildən-ilə, gündən-günə gözəlləşən heyrətamiz bir ölkə kimi!

Həmişə sizinləyəm, sizə böyük hörmətim var, sizi və atanızı həmişə xatırlayıram, İlham Əliyev.

## Gennadi Zyuqanov, Rusiya Kommunist Partiyasının Mərkəzi Komitəsinin sədri, Dövlət Dumasında fraksiya rəhbəri:



- Bakı çox gözəl imzalar qoyub dünya şöhrətli insanlarla- müğənni Müslüm Maqomayev, kəşfiyyatçı Riçard Zorge, fizik Lev Landau və s. - bu, uzun siyahının kiçik bir hissəsidir.

Və İlham Əliyevin adı da, Azərbaycan üçün çox işlər görmüş bir insanın adı kimi artıq ləyaqətlə və haqlı olaraq bu siyahıdadır.

İlham adının mənası "mənəvi güc" deməkdir və bu gücün tükənməməsini, bütün insanların xeyirinə və xeyirinə getməsini ürəkdən arzulayıram.

## Sergey Mironov, Rusiya Federasiyası Dövlət Dumasının "Ədalətli Rusiya" fraksiyasının rəhbəri:



- Ölkələrimiz və xalqlarımız arasında həmişə isti, dostluq münasibətləri olub.

Azərbaycan dövlətinin başçısı ilə görüşlərimiz zamanı mən həmişə Prezident İlham Əliyevin Rusiya ilə Azərbaycan arasında əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd etmişəm.

Və bu gün bu münasibətlərin layiqli, yüksək səviyyədə olmasında İlham Əliyevin əməyinin böyük payı var.

## Nikita Mixalkov, rejissor, prodüser, Oskar mükafatı:



- Gözəl, uzun boylu, ağıllı, incə, gülməli, hazırcavab və çox layiqli və ədalətli insan.Görüşlərimizi belə sevinclə xatırlayıram və həqiqətən də onların davam edəcəyinə ümid edirəm, çünki ünsiyyət qurmağı çox xoşlayıram, yaxşı olarsa, faydalı olmağı xoşlayıram.

Və həqiqətən ümid edirəm ki, hələ də yaxşı zarafat və ya maraqlı hekayə ilə bir-birimizi sevindirə bilərik.

## Leonid Kalaşnikov, RF Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədri:

- İstənilən ölkə arasında həmişə müəyyən ziddiyyətlər olur. Bu cür ziddiyyətlər keçmiş Sovet İttifaqının genişliyində də mövcuddur. Amma Azərbaycanın və Rusiyanın çox müdrik rəhbərləri var, bizim bəxtimiz gətirdi.





Bəzi partnyorlarla olduğu kimi, mübahisə etmək mümkün idi. Amma Rusiya ilə Azərbaycan dostluğu qoruyur, xalqlarımızın, ölkələrimizin bir vaxtlar Sovet İttifaqı adı altında birləşdiyini dərk edərək, hər zaman istənilən məsələləri həll etməyə çalışır.

İlham Əliyev bunu çox gözəl anlayır. Dostluğun, əməkdaşlığın, dövlət maraqlarının bütün incəliklərini dərk edir. O, qarşılıqlı faydalı əməkdaşlığın xeyrinə, milli maraqlar naminə əlaqələr qurmağı bilir. Bu, siyasi liderin istedadıdır.

Münasibətlərdə obyektivlik, Rusiya Federasiyasının hərəkətlərini başa düşmək. Bütün bunlar İlham Heydəroviç Əliyevə xasdır. Mən bunu bizim hər bir görüşümüzdə görürəm ki, dövlət başçısı kimi çox məşğul olmasına baxmayaraq, o, MDB işləri üzrə komitənin sədri kimi bir səviyyədə görüşmək imkanı tapır, çünki bu ölkələrimiz arasında dostluq və əməkdaşlıq xəttinin arxasında duran komitədir. Mən onun bu istedadına, dövlət məsələlərinin həllində müstəsna idarəçilik qabiliyyətinə əmin oldum.

İlham Əliyev gözəl ölkənin gözəl prezidentidir. Ona böyük hörmətlə yanaşmamaq olmaz.

### Viktor Sadovniçiy, Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru:

- Ölkələrimiz - Rusiya və Azərbaycan arasında əməkdaşlıq üçün gördüyü işlərə görə Prezident İlham Heydəroviç Əliyevə təşəkkür edirəm. O, həqiqətən qlobal bir şəxsiyyətdir.

Moskva Universitetinə münasibətinə görə xüsusi təşəkkür edirəm. O, dəfələrlə universitetdə olub, Moskva Dövlət Universitetinin fəxri professorudur. Onun təşəbbüsü ilə Moskva Universitetinin Bakıda filialı yaradıldı.

İlham Heydəroviç görkəmli şəxsiyyətdir. Onunla elmi mövzularda danışmaq asandır. O, görkəmli siyasətçi və diplomatdır. Və ən əsası o, çox yaxşı insandır. İlham Heydəroviçin Rusiyaya, Moskva Universitetinə münasibəti yaxşıdır. İlham Heydəroviçin bu keyfiyyətləri onun şəxsiyyətini ən yüksək səviyyəyə qaldırır. Mən ona çox hörmət edirəm və ölkələrimiz üçün ümumi məsələlərdə onunla ünsiyyət qurmaq və əməkdaşlıq etmək şərəfinə nail olduğum üçün şadam.

### İqor Korotçenko, nüfuzlu hərbi ekspert, "Milli Müdafiə" jurnalının baş redaktoru:



- Görkəmli hərbi qələbələr qazanan siyasi liderlər tarixdə əbədi qalacaqlar. Eyni sözləri İlham Əliyev haqqında da demək olar. O, öz adını dünya tarixinə və Azərbaycan tarixinə ölkəsinin ərazi bütövlüyünü bərpa edən bir insan kimi yazdı.

Azərbaycan üçün 30 ilə yaxın davam edən işğala son qoyulması və onun ərazilərinə nəzarətin bərpası əlamətdar hadisədir. Qeyd etmək lazımdır ki, müasir dünyada müstəqil fəaliyyət göstərə bilən liderlər çox azdır. Vaşinqtondan, Parisdən və ya Londondan qışqırıq səsi gəldi və bu və ya digər liderlər sakitləşdilər və daha qəfil hərəkətlər etmirdilər. Putinə, Əliyevə edilən təzyiqləri xatırlayırıq. Qarabağ müharibəsi zamanı əkshücum əməliyyatının dayandırılması tələbi ilə çağırışlar edilir, hədələr eşidilirdi. Bu işə yaramadı. Dünyada çox az ölkə və lider var ki, bu cür müstəqil siyasət apara, milli maraqların güdülməsi siyasəti apara bilsin.

Əlbəttə, İlham Əliyev yalnız bir səbəbdən bu cür davrana bilərdi - bütün əvvəlki illərdə Azərbaycan öz milli suverenliyini möhkəmləndirdi, Əliyev güclü şaxələndirilmiş iqtisadiyyat qurdu, o, güclü dövlət hakimiyyəti modelidir, milli ənənələr və milli prioritetləri dəqiq rəhbər tutan cəmiyyətdir. Son bir neçə ildə biz Azərbaycanın dövlət maşınının mexanizmində çox köklü yeniliklərin şahidi olduq, o zaman kifayət qədər gənc və fəal yeni praqmatik siyasətçilər gəldi. Korrupsiyaya qarşı çox ciddi mübarizə başladı, əlini xalqın cibinə soyan korrupsionerlər həbs olundu. Bu, Azərbaycanın iqtisadi və hərbi imkanları baxımından sabitliyə, üstəlik, millətin möhkəmlənməsinə nail olmağa imkan verdi. Müharibədə bu həm də çox vacib amildir- millətin lider ətrafında birləşməsi. Və belə bir konsolidasiya ona görə baş verdi ki, insanlar gördülər ki, ölkə rəhbərliyi dövlətin inkişafı, xalqın güzəranının yaxşılaşdırılması ilə məşğuldur. Və bu baxımdan dövlətin birinci şəxsinin xidmətləri müstəsnadır.

### Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru (1974-1984) Nikolay Lebedev:



Müasir beynəlxalq siyasətdə şəxsiyyət amili üstünlük təşkil edir. İlham Əliyev Azərbaycanı təkcə regionda deyil, bütün Avrasiya məkanında siyasi və hərbi əlaqələrdə aparıcı dövlətlərdən birinə çevirdi.

- İlham Əliyev hələ tələbəlik illərində ən yüksək keyfiyyətlər- insanpərvərlik, xeyirxahlıq, təvazökarlıq, istənilən məsələyə yanaşmada prinsiplərə bağlılıq ilə seçilirdi.

İndi onun namizədlik dissertasiyası üçün mövzu seçdiyi anı xatırlayıram. Mövzunu belə adlandırmışdı: "Böyük Britaniya Liberal Partiyası". Bu mövzu mənə əhəmiyyətsiz və maraqsız göründü. Və mən bu mövzunun elmi tədqiqat üçün seçilməsinin düzgünlüyünə şübhələrimi bildirdim. İlhamdan mövzu seçiminə yenidən qayıtmağı xahiş etdim. O, öz mövqeyini müdafiə etdi və arqumentləri ilə məni inandırdı. Bu, onun böyük elmi potensialını göstərdi. Vəziyyətin inkişafına təsir edən bütün amilləri düzgün qiymətləndirməyi bilən bir insan.

Bizi xüsusilə indi heyrətləndirən Azərbaycanda ünsiyyətdə rus dilinin qorunub saxlanmasıdır, hansı ki, bu gün rus dilində məktəblərin sayı artmaqdadır. Bir çox tələbə Moskvaya oxumağa gedir. Bu yaxşı bir haldır.

### Aleksandr Duqin, Beynəlxalq Avrasiya Hərəkatının lideri:



- İlham Əliyev Cənubi Qafqazın ən böyük siyasi xadimidir. O, qlobal və regional güclərin- Qərb, Rusiya, İran, Türkiyə- iştirak etdiyi ən çətin geosiyasi vəziyyətdə qalib gəldi. İlham Əliyev bu çox mürəkkəb modeldə qalib gəldi. O, AXC hakimiyyətinin itələdiyi uçuruma düşən Azərbaycanı xilas etmiş siyasətçinin xəttini davam etdirir. İlham Əliyev həm də gələcəyin prezidenti və siyasətçisidir. Çünki gələcək çoxqütblü dünyaya aiddir. Çoxqütblü dünyada həm Rusiya, həm də regional liderlərdən biri kimi Türkiyə daha böyük və daha böyük rol oynayacaqlar. Əliyevin Azərbaycanı regionun hər 3 əsas dövləti ilə əla münasibətlər qura bildi. Bu o deməkdir ki, Əliyev gələcəyə baxır, burada belə çətin geosiyasi vəziyyətdə Bakı birinciliyə məxsusdur. Bakı çoxqütblü dünyanın lideridir və bu dünyanın ədalətli, humanist, dürüst və qanuni olması üçün Azərbaycan Prezidentinin üzərinə böyük məsuliyyət düşür.

***Tərcümə - Elçin Bayramlı***

---

# "Həmrəylik Günü Azərbaycan diasporu üçün qiymətli tarixdir"




"Hansısa tarixi hadisənin bir günün timsalında simvollaşdırılması və bunun hər il qeyd olunan ənənəyə çevrilməsi həmin hadisənin tarixini, önəmini, məzmununu bir neçə dəfə artırır. 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bu qəbildən olan hadisələrdən biridir. Bu hadisə bizim tariximizdə önəmli bir dövrün açılmasına səbəb oldu. Dekabrın 31-də sərhəddə baş verən hadisələr və Azərbaycan xalqının göstərdiyi cəsarət nümunəsi həm bizim üçün bu tarixi günün simvollaşdırılmasına gətirib çıxardı, həm də tariximizə yeni bir tarixi gün əlavə etdi. Əlbəttə, bu hadisələrin bir tarixi gün kimi simvollaşdırılmasının özü də böyük bir nailiyyət idi". Bu sözləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin Baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, bu nailiyyət Heydər Əliyevin adı ilə bağlı oldu: "Təbii ki, o zaman əsasən xalq hərəkatı fəallarının sərhədlərdə Azərbaycan xalqının həmrəyliyi istiqamətində atdığı addımlar Azərbaycanın hakimiyyət strukturlarında təkrar oluna və dəstək qazana bilmirdi. Açıq-aşkar buna qarşı siyasi bir iradə var idi. Amma buna baxmayaraq Heydər Əliyev Azərbaycanın mərkəzi hakimiyyətinin o zamanki siyasi iradəsinə zidd olaraq belə bir cəsarətli addım ataraq 31 dekabr tarixini Naxçıvan Ali Məclisində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi simvollaşdırılması barədə qərarın çıxarılmasına nail oldu. Azərbaycanın mərkəzi hakimiyyətindəki sağlam vətənpərvər qüvvələr də bu hadisənin dekabr ayının 31-də simvollaşdırılmasına dəstək verdilər. Heydər Əliyevin atdığı bu addım Azərbaycanın tarixində yeni bir mərhələ, dövr açmaqla bərabər, eyni zamanda bütün Azərbaycan xalqının bu simvolun ətrafında toplaşması üçün yeni bir stimul verdi".

Aydın Quliyev fikirlərinə davam edərək həmçinin qeyd edib ki, bütün dünya azərbaycanlıları gördülər ki, Azərbaycan adlı bir məmləkətin haray səsi var: "Ona görə də bu hadisə dünya azərbaycanlılarına böyük təsir göstərdi. Azərbaycan dövlətində baş verən hadisələrə daha yaxından diqqət yetirmələrinə təsir göstərdi. Həqiqətən də Heydər Əliyevin təşəbbüsü ilə dekabr ayının 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi simvollaşdırılması dünya Azərbaycan diasporunun yaranma prosesinin ilkin mərhələsi oldu və ona böyük təkan verdi. Ona görə də Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması əbədi yaşayacaq bir tarix olmaqla yanaşı, həm Azərbaycan üçün, həm də dünyaya səpələnmiş bütün Azərbaycan diasporu üçün qiymətli bir tarixdir".

# Mixail Çernov: "3+3 formatı Ermənistanı Türkiyə-Azərbaycan orbitinə cəlb etmək üçündür"



Rusiya-Avrasiya layihəsinin (RF) rəhbəri Mixail Çernov "Caliber" analitik mərkəzinə qısa müsahibəsində regionda yaranmış vəziyyət və region ölkələrinin münasibətəri haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- 3+3 formatına necə baxırsınız?**

- "3+3" formatı maraqlı tərəflərin (ilk növbədə Türkiyə, Rusiya, Azərbaycan və İran) nəqliyyat layihələrini sürətlə həyata keçirməsi və regiondakı vəziyyəti siyasi cəhətdən yenidən formatlaşdırmaq yoludur. Türkiyə və Azərbaycan üçün bu, Naxçıvan vasitəsilə olan dəhlizdir və Ermənistanı öz nəzarəti altına almaq cəhdidir. İran üçün- Ermənistan və Gürcüstan üzərindən Qara dənizə və Rusiyaya mümkün dəhlizlərin açılması. Rusiya üçün- İran və Ermənistana dəhlizin açılması, həmçinin Gürcüstanı müəyyən münasibətlər formatına cəlb etmək.

Formatın gələcəyinin olub-olmadığını söyləmək çətindir. Ankara və Bakı üçün bu, İrəvana təzyiq vasitəsidir. Ancaq görünür, bunsuz da öhdəsindən gələ bilərlər. Rusiya üçün Gürcüstanı dialoqa cəlb etmək vacibdir, lakin Tiflis hələlik bu formatda iştirakdan imtina edir. Bu, digər böyük maraqlı tərəflərin təzyiqinin effektivliyindən asılıdır.

**- "3+3" mexanizminin işə düşməsi dövlətlərarası münasibətlərdə inamın artmasına kömək edəcəkmi?**

- Bu layihə bu və ya digər şəkildə Ermənistanı Türkiyə-Azərbaycan orbitinə cəlb etmək üçün yaranıb. Ermənistanın bütün mövqelərdə təslim olması prosesini "etimadın artması" hesab etsək, bəli. Ciddi olsaq, Rusiyanın Türkiyəyə tam güvənməyinin mənası yoxdur, amma təbii ki, onunla dialoq aparmaq lazımdır.

**- Bu layihə Rusiya ilə Gürcüstanın yaxınlaşmasına töhfə verəcəkmi?**

- Hələlik, Gürcüstan bu formatda dialoqdan imtina edir. Əgər Tbilisi orada iştiraka getsə, bu, münasibətləri blokdan çıxarmağa kömək edə bilər.

- Sizcə, Qərb 3+3 formatına necə baxır?

- Gürcüstanın bu formata qarışmasına Qərb və hər şeydən əvvəl ABŞ mane olur. Eyni zamanda, Türkiyənin iştirakı və fəal rolu İngiltərənin bölgədəki maraqlarına əməl olunması deməkdir. Qərb formatın işində maraqlı ola bilər ki, əgər hesab etsə ki, onun həyata keçirilməsi Rusiya hərbi bazasının Ermənistandan çıxarılmasına və Rusiya Federasiyasının Zaqafqaziyadan çıxarılmasına töhfə verəcək.

***Tərcümə - Elçin Bayramlı***

# Prezidentimiz müsahibəsində ermənilərə DƏRS VERDİ!



***İtaliyanın Ermənistanla Azərbaycan arasında doğru seçim etməsi, ölkəmizlə əlaqələrə üstünlük verməsi erməni cəmiyyətini əməllibaşlı qıcıqlandırıb. Görünür, bu ölkənin doğru olanın, haqlı olanın, ədalətli olanın tərəfində, yanında olması Ermənistanda faciə kimi qarşılanır, çünki mövqelərinin yanlış, haqsız və ədalətsiz olmamarını özləri hamıdan yaxşı bilirlər, amma bunu gizlətmək, örtbasdır etmək üçün dəridən-qabıqdan çıxırlar.***

İtalyanların spagetti, makaron və digər bu tip məhsullara böyük sevgisi ilə bağlı olaraq onları makaronçu adlandıran Avropallar heç də onları təhqir etmək niyyəti güdmürlər. Lakin ermənilər italyanları məhz təhqir etmək məqsədi ilə tez-tez aşağılayıcı şəkildə onlara makaronçu deyirlər və İtaliyanın Azərbaycanla əlaqələrini, əməkdaşlıqlarını həzm edə bilməyən ermənilər italyanlar barədə aşağılayıcı ifadələr axtarmaqda hələ də davam edirlər.

İndi erməni cəmiyyəti rəsmi Romanın mövqeyini daha çox aşağılamaq üçün əldən-ayaqdan gedir və səbəb də tam şəkildə bəllidir. Bəzi erməni politoloqlar utanmadan bu niyyətlərini etiraf da edirlər, buna haqq da qazandırırlar. Bir xristian ölkəsi olan, katolikliyin mərkəzi, Vatikanın yerləşdiyi İtaliyanın xristian ölkəsi olan Ermənistanla əməkdaşlıq etməyib, Ermənistanın yanında, tərəfində deyil, müsəlman ölkəsi olan Azərbaycanın tərəfində olması, ölkəmizlə əməkdaşlıq etməsi erməniləri tamamilə özlərindən çıxarıb. Hətta ermənilər italyanların neft ölkəsi olan Azərbaycana bayağı şəkildə satıldığını iddia edirlər. Özü də, yenə də utanmadan, çəkinmədən. Bu ermənilərə sual etmək lazımdır ki, inkişaf etmiş bir Avropa ölkəsi olan İtaliya Ermənistanla hansı əməkdaşlıq qura bilər? Ermənistanın nəyi var ki, buna görə təkcə İtaliya yox, hansısa ölkə əməkdaşlıq istəyinə düşsün axı? Bu işğalçı ölkə məkirli siyasətdən, terrorçuluqdan savayı nə ixrac edir ki, bu da, Fransa istisna olmaqla avropalıları, italyanları maraqlandırsın?

İtaliyanın "C Group" şirkətinin əməkdaşlarının işğaldan azad olunan Füzuli rayonuna səfər etməsi d ə ermənilərin yuxusunu ərşə çəkib. İşğaldan azad olunmuş torpaqlarımıza kim, hansı ölkənin şirkəti, yaxud nümayəndəsi səfər edirsə, ermənilər onlara düşmən gözü ilə baxır. Üstəlik bir xristian dövlətinin hansısa şirkəti belə bir səfər etdikdə ermənilərin təpələrindən tüstü çıxır. Elə bu tüstünün təsiri ilə də həmin səfər edənləri aşağılamağa çalışırlar. Soruşmaq ayıb olmasın, bu ermənilər nə düşünrlər, elə bilirlər ki, onlara görə bütün Avropa yas saxlamalıdır, yoxsa təəssübkeşlik etmək məcburiyyətindədir? Axı ermənilərin avropalılar qarşısında nə kimi xidmətləri olub, hansı məhsulun təminatçısı qismində çıxış ediblər, ya da nə kimi yardımlar ediblər, hansı sahədə yardımçı olublar ki, indi də nə isə umurlar? Sadəcə xristian ölkəsi olan dövlətlərdən bu qədər tələb etmək, onları dəstəkləmələri üçün hay-həşir salmaq ən azından həyasızlıqdır. Təbii, bu ermənilər üçün adi haldır, amma bu o demək deyil ki, hamı üçün də adi hal kimi qəbul edilməlidir.

Qədim Romanın uğurlarına iddialı olan İtaliyanın təcavüzkar və soyqırım siyasətini pisləyən dövlətlərin avanqardında olmalı olduğunu deyərkən görmürlərmi ki, bu həqiqətən də belədir? Görmürlərmi ki, İtaliya işğalçı, təcavüzkar, soyqırım siyasəti yürüdən Ermənistanın siyasətinə şərik olmur və sülh tərəfdarı olan Azərbaycanla əməkdaşlıq etməyi üstün tutur? Yəni, artıq onların yalanlarından bütövlükdə hamının bezməsi, doyması və soyqırımın da, işğalçılığın da, təcavüzkarlığın da müəllifinin elə onların özləri olması qənaətinə Avropanın gəlməsini görmürlər, yoxsa qəbul etmirlər? İtalyanların, Fizulidə Qələbə Muzeyi, İşğal Muzeyi, Xatirə Parkı və Bayraq Meydanının yaradılacağı ərazilərə, bu obyektlərin layihələndirilməsi üçün baxış keçirməsi xəbərini yayıb, sonra da bunu xristian birliyinə və demokratiya ənənələrinə xəyanət kimi adlandıran ermənilər görünür, həya və ar anlayışından belə xəbərsizdirlər.

"Dekameron" əsərinin müəllifinin, Covanni Bokkaççonun həmvətənlərinin əksəriyyətini utanmadan gülməli və biabırçı adlandıran ermənilər, İtaliyanın "Il Sole 24 Ore" qəzetinin müxbirini də gülməli və biabırçı kimi qələmə verməyə çalışırlar. Niyə, nə səbəbə bunu edirlər? İtaliyaya məxsus media orqanının müxbirini düşmən kimi görməyin səbəbi nədir? Səbəb sözügedən mətbuat orqanının Azərbaycan Prezidentindən, cənab İlham Əliyevdən müsahibə alması, Azərbaycanın dövlət başçısının mövqelərini dəstəkləməsi, fikirlərinə hörmətlə yanaşmasıdır. Maraqlıdır, niyə də italyan müxbir, İtaliyanın "Il Sole 24 Ore" qəzetinin müxbiri həqiqəti tam şəkildə əks etdirən, doğru olan fikirlərə, ölkəmizin, ölkə başçımızın, cənab İlham Əliyevin humanizm prinsiplərinə, sülhə çağırış etməsinə, beynəlxalq hüquqa hörmətlə yanaşmasına hörmətlə yanaşmamalıdır axı? Ümumiyyətlə, belə bir hal mümkündürmü? Əlbəttə ki, mümkün deyil və indi ermənilərin italyan müxbir barəsində dedikləri sadəcə növbəti həyasızlıqdır.

Əvvəla, Azərbaycan Prezidenti "Il Sole 24 Ore" qəzetinin timsalında dünyanın aparıcı media orqanına birinci dəfə deyildi ki, müsahibə verirdi, dəfələrlə belə müsahibələrin bütün dünya ictimaiyyəti şahidi olub. Şahidi olub ki, müsahibələrində ölkə başçımız hər zaman ədalətlilik, humanizm prinsiplərindən çıxış edib, hansıki heç bir ölkənin medai nümayəndəsi buna qarşı çıxış edə bilməzdi, edə bilmədi də. Digər tərəfdən, Azərbaycan Prezidenti bütün müsahibələrində arqumentlərə, faktlara əsaslanaraq reallıqları ortaya qoyub və bu həqiqətləri heç bir media orqanının nümayəndəsi təkzib edə bilməzdi, necə ki, bəzi qərəzli media nümayəndələri buna cəhd etsələr belə bacarmadılar. Çünki onlar müsahibəni təcrübəli, savadlı, uzaqgörən, ümumilikdə yüksək liderlik keyfiyyətləri ilə seçilən və dövlətinin, xalqının maraqlarını qorumağı bacaran, qətiyyətli bir ölkə rəhbərindən aldıqlarının ən tez zamanda fərqində oldular. Eyni ilə, İtaliyanın "Il Sole 24 Ore" qəzetinin müxbiri də Azərbaycan Prezidentinin sadalanan keyfiyyətlərinin canlı şahidi oldu və ermənilərdən fərqli olaraq, reallıqları təkzib etmək kimi bir həyasızlıq etmədi.

Digər bir tərəfdən də İtaliya Azərbaycanla strateji tərəfdaşlıq haqqında sənəd imzalayan Avropa İttifaqının 9 üzv dövlətindən biridir. Üstəlik, İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Nəhayət, Azərbaycan yanvarın 1-dən İtaliya, Yunanıstan və Bolqarıstana 7,2 milyard kubmetr qaz tədarük etməyi öhdəsinə götürüb. Bir sözlə, enerji təminatı baxımından, ticarət tərəfdaşlığı baxımından Azərbaycan İtaliya üçün maraqlı bir tərəfdaşdır. Ölkələrimiz arasında əməkdaşlıq üçün yetərincə əsaslar mövcuddur ki, bunu ermənilər görmürlərmi? Görmürlərmi ki, Azərbaycan əməkdaşlıq baxımından maraqlı ölkədir? İndi sual oluna bilər ki, Ermənistanla İtaliya hansı əməkdaşlıq etsin, nə kimi tərəfdaşlıq eləsin? İtaliya da terrorçuluğu dövlət siyasəti kimi qəbul etməlidir ki, Ermənistan kimi səfalət içində inləyən bir dövlətin xoşuna gəlsin? Yaxud, İtaliya nəyə görə Ermənistanın maraqlarına xidmət etməlidir? Ümid edirik ki, Ermənistanda bu suallar ətrafında düşünən, yaxud bunu anlayacaq bircə nəfər də olsa ola bilər.

İndi bir nəticəyə gəlməyin zamanıdır ki, Fransa istisna olmaqla, heç bir Avropa ölkəsi Ermənistanın yalanlarını, uydurmalarını dəstəkləmək məcburiyyətində deyil və erməniləri də avropalılar öz öhdələrinə götürməyiblər. Bunu təkcə erməni baş naziri Nikol Paşinyan deyil, bütün ermənilər anlamalıdırlar. Anlamalıdırlar ki, artıq bütün ölkələrin, beynəlxalq təşkilatların reallıqları təkzib etməyə nə marağı var, nə də imkanı və hətta Brüssel görüşündə Fransa belə Ermənistanın maraqlarına xidmət edəcək bir məqama belə kömək edə, dəstək göstərə bilmədi. Ya bacarmadı, ya da marağı olmadı, amma hər bir halda bu dəstəyin şahidi olan olmadı.

Brüssel görüşünün ardınca ölkə başçısnın, cənab Prezident İlham Əliyevin İtaliyanın "Il Sole 24 Ore" qəzetinə müsahibəsi xüsusilə diqqət mərkəzindədir və bu məqam erməniləri ən çox incidən məqamdır. Çünki, "Il Sole 24 Ore" qəzetinə müsahibəsində Azərbaycan Prezidenti bütün reallıqları tutarlı arqumentlərlə, faktlarla ortaya qoyaraq, erməni cəmiyyətinə dərs verdi. Həqiqətin nədən ibarət olduğu barədə bütün dünya ictimaiyyətini növbəti dəfə məlumatlandıran ölkə başçısı ermənilərin yaratdıqları mifləri də, arzularını da puç etdi, üstəlik, bundan sonra üçün bəslədikləri ümidləri belə puça çıxardı. Cənab Prezident sübut etdi ki, Azərbaycanın, eləcə də ötən il 10 noyabr tarixində imzalanan bəyanatın şərtlərinə əməl etməkdən başqa Ermənistanın çıxış yolu yoxdur. Bütün reallıqların tam dəqiqliklə sadalanması, Azərbaycan həqiqətlərinin, bölgədə movcud reallıqların diqqətə çatdırılması, bunu bütün dünya ictimaiyyətinin qəbul etməsi ermənilər üçün böyük bir dərs oldu. Bu baxımdan cəsarətlə deyə biləriok ki, Prezidentimiz öz müsahibəsində ermənilərə dərs verdi və çətin ki, bunu unudalar. Yox, əgər unutmuş olsalar, o zaman yaddaşlarını təzələmək üçün dəmir yumruqdan istifadə etmək lazım gələcək, hansıki bunu bütün dünya da yaxşı bilir və qəbul edir, nəinki ermənilər özləri.

***İnam Hacıyev***

# "Ermənistanın xəritə adı ilə verdiyi kağız parçaları həqiqətdən uzaqdır"

"Ermənistanın Azərbaycana xəritə adı ilə verdiyi kağız parçaları həqiqətdən çox uzaqdır və dəfələrlə ölkə başçısı qeyd edib ki, bu xəritələrin həqiqilik səviyyəsi 25 faizi keçmir". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Üzeyir Cəfərov bildirib.

Onun sözlərinə görə, Ermənistan necəki əvvəlki illərdə beynəlxalq hüquq normalarına hörmətlə yanaşmırdısa, o cümlədən də xəritələrlə bağlı məsələdə də məsuliyyətsiz hərəkət edir: "Ermənistan növbəti dəfə öz cinayətlərini davam etdirir. Çünki 200-dən artıq vətəndaşlarımız məhz Ermənistan tərəfinin basdırdığı minalar səbəbindən öz həyatından olub. Ona görə də biz öz işimizi özümüz yerinə yetirməliyik. Həm Müdafiə Nazirliyi, həm Fövqəladə Hallar Nazirliyi, həm ANAMA, həm də digər qurumlar bu işləri professional şəkildə həyata keçirməyə çalışırlar. Sözsüz ki, bu işin tempinə təsir göstərir, ona görə də verilən xəritələr həqiqi olsaydı qısa bir müddətdə xeyli iş görə bilərdik. Amma təssüflər olsun ki, xəritələr həqiqətə uyğun deyil. Həmçinin bu minaaxtaranların öz həyatları üçün təhlükə yaradır. Mina xəritələri dəqiq olmadığı üçün bir günlük iş 3-4 günə qədər vaxt aparır. Hətta bəzən olur ki, minalardan təmizlənmiş ərazilərdə sonradan partlayış baş verir. Bunlar hamısı labüddür.





Hesab edirəm ki, Ermənistan bu məsələyə görə də cavab verməlidir. 44 günlük Vətən müharibəsindən sonra onların bilavasitə borcu idi ki, mina xəritələrini təqdim etsinlər. Amma təəssüf ki, Ermənistanın beynəlxalq hüquqi anlayışı yoxdur və olmayacaq da. Həmçinin qeyd etmək istərdim ki, ATƏT-in Minsk qrupu da onlara heç bir xəbərdarlıq etmədilər. Ona görə də bu məsələ belə uzandı. Bir neçə gün sonra artıq yeni təqvim ilinə keçid edəcəyik və vətəndaşların bir qismi həmin ərazilərə yerləşdirilməli idi. Amma həmin ərazilər minadan tam təmizlənmədiyi üçün təssüf ki, bu proses gecikir. Zaman-zaman bu məsələni ictimai qurumların diqqətinə çatdırmalıyıq ki, Ermənistan həm humanitar sahədə, həm də hərbi sahədə cinayət əməllərini davam etdirir".

***Abutel İlhamqızı***

***Azərbaycanın dinamik inkişafı, iqtisadi sabitləşmə öz yerini sosial sahədə ciddi dəyişikliklərə verir. Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin ilk növbədə əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır.***



# Dövlət başçısının imzaladığı Sərəncamlar insanların sosial həyatının daha da yüksəldilməsinə yönəldilib



“Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir”, - deyə Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğulamışdır. Bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik olan bir ölkəyə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə imzaladığı fərman və sərəncamlar dövlətin sosial sahədə apardığı islahatların davamıdır.

”Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, minimum aylıq əməkhaqqının məbləği 2022-ci il yanvarın 1-dən 300 manat müəyyən edilib. Prezidentin digər Sərəncamı ilə dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, o cümlədən gənclərin çağırışaqədərki hazırlıq və fiziki tərbiyə rəhbərlərinin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqları artırılıb. Belə ki, 2022-ci il yanvarın 1-dən Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları orta hesabla 20 faiz, fiziki tərbiyə rəhbərlərinin aylıq vəzifə maaşları orta hesabla 30 faiz, gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin aylıq vəzifə maaşları orta hesabla 40 faiz artırılıb. Prezident İlham Əliyevin imzaladığı yeni Fərman və Sərəncamlara əsasən, ölkədə müavinətlərin artırılması ilə yanaşı, bəzi təqaüdlər də artırılıb. Artımlar 2022-ci ilin əvvəlindən tətbiq olunacaq. Azı 25 il pedaqoji staja malik, işləməyən pensiyaçı olan elmlər doktorları və fəlsəfə doktorlarına 2021-ci il yanvarın 1-dən Prezidentin aylıq təqaüdü təsis olunub. Yeni Fərmanla bu təqaüd elmlər doktorları üçün 50% artırılaraq 200 manatdan 300 manata, fəlsəfə doktorları üçün 67% artırılaraq 120 manatdan 200 manata çatdırılır.

Dövlət başçısının digər yeni Sərəncamı doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) magistratura səviyyəsində təhsil alan tələbələrin təqaüdlərinin 20% artırılmasını nəzərdə tutur. Sərəncamla gələn ilin əvvəlindən həmin təqaüdlərin məbləği elmlər doktoru hazırlığı üzrə doktorantlar üçün 360 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlar üçün 216 manat, ali təhsil müəssisələrində və AMEA-da adlı təqaüd alan tələbələr üçün 204 manat, magistr səviyyəsi üzrə akademik göstəriciləri 91-100 bal olan tələbələr üçün 174 manat, 71-100 bal olan tələbələr üçün 144 manat, 51-100 bal olan tələbələr üçün 96 manat, bakalavr səviyyəsi üzrə akademik göstəriciləri 91-100 bal olan tələbələr üçün 156 manat, 71-100 bal olan tələbələr üçün 132 manat, 51-100 bal olan tələbələr üçün 90 manat təşkil edəcək.

Xatırladaq ki, dövlət başçısının yeni Fərman və Sərəncamları əlilliyi olan şəxslər və digər kateqoriyalardan ibarət ümumilikdə 732 min şəxsin, o cümlədən 132 min doktorant və tələbəni əhatə edərək, müavinət və təqaüd formasında onlara yönələn sosial ödənişlərin gələn ilin əvvəlindən artırılmasını təmin edir. Bu artımlar üçün illik əlavə 200 milyon manat ayrılıb. Prezident İlham Əliyevin imzaladığı yeni Fərmanlarla əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlarla yanaşı, digər bir sıra kateqoriyalara yönələn müavinətlər də əhəmiyyətli şəkildə artırılıb. Göründüyü kimi, vətəndaşlara qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması istiqamətində aparılan işlər Azərbaycan dövlətinin prioritetlərindəndir. Ölkə başçısının siyasi iradəsinə uyğun olaraq ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz insan amili, vətəndaşların mənafeyi dayanır. Bu günlərdə imzalanan fərman və sərəncamlar insanların sosial həyatının yaxşılaşdırılmasına və vətəndaş məmnunluğunun artırılmasına yönəldilib. Minimum əməkhaqqının, pensiyaların, təqaüdlərinin və digər ödənişlərin artırılması sosialyönümlülük və humanizm prinsiplərinə əsaslanır.

***Zümrüd BAYRAMOVA***

# Prezident İlham Əliyev davamlı inkişaf modelinin müəllifidir

***Hər birimizə məlumdur ki, sabit və davamlı dövlətçilik ənənələrini formalaşdırmaq, həmin ənənələri inkişaf etdirmək hər dövlət başçısının iradi qabiliyyətinin təzahürü olmur. Davamlı dövlətçilik ənənələrini formalaşdırmaq üçün yüksək mənəvi keyfiyyətə, ali bəşəri və milli ideyalara, ümummilli mənafelərə sidq - ürəkdən bağlı olmaq lazımdır.***



*Aqşin Bağırov*
*Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədr əvəzi*

Müasir dövlətçilik tariximizin parlaq siması, böyük şəxsiyyəti Ulu Öndər Heydər Əliyev məktəbi dövlət quruculuğunu öyrədən ən mükəmməl məktəbdir. Bu məktəbin yetirməsi cənab Prezident İlham Əliyev tarixin axarını dəyişən ideya və prinsiplərlə Azərbaycanın davamlı inkişaf modelini yaratmışdır. Cənab Prezident İlham Əliyevin lider kimi böyüklüyü daim uzaq hədəflərə hesablanmış və Azərbaycanın inkişafı uğrunda milli məqsədləri önə çəkən siyasət yürütməsi olmuşdur. Məhz ölkədə aparılan genişmiqyaslı yenidənqurma işləri, həyata keçirilmiş struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına zəmin yaratmışdır.

”Əsl siyasət - konkret, real iş görməkdən ibarətdir” deyən cənab Prezident İlham Əliyev 2003-cü ildən bəri verdiyi vədlərə sadiq qalaraq Azərbaycanın davamlı inkişafı uğrunda yorulmadan çalışmaqdadır. Ulu Öndər Heydər Əliyevin idarəçilik ənənələrini yeni dövrün tələblərinə uyğun daha da zənginləşdirən cənab İlham Əliyev xalqın problemlərinə həssaslıqla yanaşır və bütün məmurlar qarşısında bunu öhdəlik olaraq qoyur. Dövlət başçısının gerçəkləşdirdiyi uğurlu diplomatiya Azərbaycanın bölgədə və dünyada layiqli yerini tutmasını, regional liderliyini təmin etmişdir.

44 günlük Vətən Müharibəsində qazanılmış tarixi zəfərlə cənab Prezident İlham Əliyev dünya tarixində yeni bir səhifə açmışdır. İşğaldan azad edilmiş torpaqlarımızda ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyimiz qısa zamanda bərpa edilməyə başladı. Bölgədə aparılan genişmiqyaslı quruculuq işləri, beynəlxalq hava limanlarının, yeni dəmir yolu xətlərinin tikintisi bölgənin inkişafına, bununla da bütün Cənubi Qafqaz regionunun tərəqqisinə əhəmiyyətli təkan verəcəkdir. Azad edilmiş ərazilərin yaşıl enerji zonasına çevrilməsi, həmin ərazilərdə su mənbələrindən istifadə edilməklə su elektrik stansiyalarının tikintisi də məhz davamlı inkişaf modelinin tərkib hissəsidir.

Məhz ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi üçün dövlət proqramları hazırlanmışdır. Bu proqramlar əhalinin yüksək iqtisadi fəallığını stimullaşdırır, yaşayış səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırır, Azərbaycanın regionlarının hərtərəfli tərəqqisinə yol açır. Son illərdə Azərbaycan dünyada iqtisadi artım tempinə görə ön sıralarda qərar tutmuşdur. Bunun səbəbi də ölkə başçısı tərəfindən həyata keçirilən davamlı inkişaf modelidir. Bu modelin hazırlanması və həyata keçirilməsi Dayanıqlı İnkişaf məqsədlərinin icrasını institusional və siyasi baxımdan daha da səmərəli edir. Bir sözlə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş və çevik siyasəti, uzaqgörənliklə qəbul etdiyi qərarlar qarşıdakı illərdə ölkəmizin dayanıqlı və davamlı inkişafını təmin edəcəkdir. Bu haqlı yol Azərbaycan xalqına daha firavan həyat və uğurlu gələcək bəxş edəcəkdir. Bu yolda hər birimizin səfərbər olması müqəddəs amalımız və vətən qarşısında borcumuzdur. Daha güclü Azərbaycan naminə hər bizimizə uğurlar arzulayıram!

SİYASİ RAKURS-AKTUAL

# Parisin təxribatı, RSK-nın “görməzliyi”, İrəvanın həyasızlığı: Bakının səbri tükənir!

*Azərbaycanın siyasi diplomatik və hərbi arsenalında kifayət qədər imkan verən təzyiq mexanizmləri var və onların istifadəsi artıq labüdlüyə, zərurətə çevrilməyə başlayıb*

Görünür, Ermənistan yavaş-yavaş Fransanın əyalətlərindən birinə çevrilmək üzrədir. Fransa prezidenti Emmanuel Makron Brüssel görüşündə Azərbaycanın dövlət başçısı və Ermənistanın baş naziri ilə görüşdükdən sonra özünün erməni















maraqlarına sadiq qaldığını hər vəchlə sübuta yetirməyə çalışır, Fransanın prezidentliyinə namizədləri isə ard-arda Ermənistanı ziyarət edir, bu da azmış kimi onlardan biri Rusiya sülhməramlılarının burunlarının altından keçməklə hələ də Azərbaycanın suveren ərazilərində mövcud olan separatçı tör-töküntüləri ilə görüşlər keçirir, 44 günlük müharibə vaxtı gəbərdilmiş terrorçuların üzərində faşist svastikası vurulmuş gorlarını ziyarət edir, ərazi bütövlüyümüzə qarşı açıq-aşkar işğalçı mövqeyindən yanaşır.

Əslində onu da deyə bilərik ki, fransalı prezidentliyə namizədin və yanındakı bir neçə fransalı deputatlarının təxribatçı səfərlərini Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingenti (RSK), ya da Ermənistan rəhbərliyindən gizli şəkildə həyata keçirmələri mümkün deyil. Yəni kifayət qədər məlumdur ki, səfər öncəsi həm Ermənistan, həm də RSK məlumatlandırılmışdı. Hətta bu səfərin təşkilatçıları da İrəvan və RSK-dır desək yanılmarıq!

Ancaq buraya bir az da konspirologiya əlavə etsək həmin təxribatın həyata keççməsinin kökündə daha bir amil də dayana bilər - Putinlə Makronun telefon danışıqları. Məhz ondan sonra həmin səfərin reallaşdırılmasında mümkün təsirlərin ola biləcəyi qənaətinə gələ bilərik. Bu zaman sual yaranır, həmin təxribatın məqsədinin kökündə hansı maraqla dayanır?

Və bu gün Rusiya izah etməlidir ki, necə olur üçtərəfli bəyanatın 4-cü bəndinə əsasən Qarabağdan çıxarılmalı olan erməni silahlıları onların gözləri qarşısında səngərlər qazır, müdafiə istehkamları qururlar? Biz hələ Ermənistandan Qarabağa mülki geyimlərlə qanunsuz hərbi çağırışçıların daşınmaları faktlarını və s. sübutları dəlilləri önə sürmürük. Hansı belə dəlillər yüzlərlədir.

Elə isə mümkün ehtimallarımızı irəli sürək. Məlumdur ki, Zəngəzur dəhlizinin blokadadan çıxması və istifadəyə verilməsi yönündə Ermənistan uzun müddətdir ki, çəkçevir edir, üçtərəfli bəyanatda əks olunmayan əsassız tələblərini irəli sürür, keçid məntəqələri qurması ilə bağlı iddialar qaldırır və buna cavab olaraq Azərbaycan Prezidenti İlham Əliyev Laçın dəhlizində Azərbaycan buraxılış məntəqələrinin qurula biləcəyini istisna etmir. Bütün bunlardan sonra təxribatın hədəfi də məhz həmin istiqamətə doğru yönəlir: Laçın dəhlizinin girişində Azərbaycan postlarının qurulması ehtimallarını azaltmaq.

Başqa tərəfdən, Rusiya Laçın dəhlizindəki eksklüziv və müvəqqəti varlığınıı bacardığı qədər uzunmüddətli etməyə çalışır və yaxud istəyir. Bu mənada, öz siyasətini Qarabağa da transfer etmək istəyən, lakin bunu bacara bilməyən Fransa üçün ən azından Rusiyanın bölgədə qalması faktoru sərf edir, yəni bu iki ölkənin fikirləri müəyyən mənada üst-üstə düşür.

Məlumdur ki, Azərbaycan RSK-ya mandat verməyib, sadəcə başa çatmış münaqişənin tam olaraq aradan qaldırılması istiqamətində fəaliyyət göstərməsi, sənədlərin yoxlanması, humanitar məsələlərin həyata keçirilməsi üçün dəvət edib. Bu baxımdan, Rusiya RSK-nın mandat məsələsini aktuallaşdırmağa çalışır.

Ermənistan rəhbərliyi isə ”status” məsələsi artıq cəhənnəmə göndərilib, bununla yanaşı ATƏT-in Minsk qrupunun da bölgədə hər hansı üstünlüyü mövcud deyil.

Ermənistan isə əlindəki son ”şansını” istifadə etməklə heç olmasa Qarabağdakı ermənilərin ”subyektliklərini” ictimai səviyyədə saxlamağa müvəffəq olmağa çalışır. Ancaq bununla yanaşı, İrəvan son həftələrdə əldə olunmuş ilkin razılaşmaları da pozma təhlükəsini ortaya atır.

Misal üçün, üçtrərəfli bəyanatda əks olunmayan tələblərini irəli sürməklə: Zəngəzurda postlar yerləşdirmək istəyən ermənilər unudurlar ki, Azərbaycan Prezidenti İlham Əliyev hər an Laçın dəhlizinin girşində (Zabux istiqamətində) heç bir bəndləri pozmadan və suveren hüquqlar əsasında sərhəd postlarının yerləşdirilməsi ilə bağlı qərar verə bilər. Buna isə daha bir səbəb var - Ermənistanın baş nazirinin müavinləri Azərbaycandan əvvəl Ermənistan üçün yolların açılmasını tələb ediblər. Mövcud təxribatlar isə erməni tərəfinə qarşı olan inamsızlıqları daha da artırmış olur.

Yeri gəlmişkən, artıq bəlli olub ki, yaxın günlərdə Rusiyanın təklifi ilə Moskvada MDB ölkələ rəhbərlərinin qeyri-formal sammiti keçiriləcək. Sammitdən öncəki təxribatlar isə istər Ermənistan, istərsə də RSK üçün heç də yaxşı nəticələr verə bilməz. Laçın dəhlizində postların qurulması isə artıq Azərbaycanın daxili xarakteri tələbinə çevrilməkdədir və eyni zamanda xüsusilə qeyd edə bilərik ki, Azərbaycan tərəfindən dəvət olunmuş RSK ötən müddət ərzində özünə qarşı inamsızlığın yaranması üçün əlindən gələn hər şeyi edib - Azərbaycan ictimaiyyətinin bu kontingentə olan münasibəti isə açıq-aşkardır, göz önündədir!

Məsələni daha dərindən təhlil etsək həm də belə nəticəyə gələ bilərik ki, bu ərəfələrdə, xüsusilə Fransanın prezidentliyə namizədinin RSK-nın burnunun altından keçməklə Qarabağın separatçıları ilə görüşməsindən sonra Bakının qəti və çevik, eyni zamanda sərt və əsaslı qərar verməsi mümkünlüyü gündəmdədir. İlk növbədə Fransa hökumətinə kəskin etiraz reaksiyasını gözləməyə dəyər. Dsaha sonra Ermənistanı dalana sıxşdırmaqla Fransanın maraqlarını heçə endirmək, ATƏT-in Minsk qrupunun yararsızlığını ifşa etmək üçün daha sərt fəaliyyət göstərmək, həmsədrləri asılı vəziyyətdə saxlamaq, müəmmalı İrəvan səfərləri ilə yadda qalan rus generalı Muradovu isə aut halına salmaq.

Lakin bütün bunlarla yanaşı Bakının daha sərt addımları da atıla bilər. RSK-nin məsul olduğu bölgələrdə separatçılara məxsus hərbi məqsədli nöqtələrə antiterror əməliyyatları ilə zərbə endirmək, Laşın və Kəlbəcərdə Türkiyə və Pakistanla planlaşdırılmış birgə hərbi təlimlər keçirmək, eləcə də PUA-lardan istifadə etmək. Bütün bunların fonunda isə əsas olaraq Qarabağda Rusiyanın, Fransanın və Ermənistanın neqativliklərinə təzyiq göstərmək və onların Azərbaycaba qarşı təxribatçı təzyiq planlarını məhv etmək daha yaxşı olardı. Bütövlükdə isə Azərbaycanın siyasi diplomatik və hərbi arsenalında kifayət qədər imkan verən təzyiq mexanizmləri var və onların istifadəsi artıq labüdlüyə, zərurətə çevrilməyə başlayıb.

**Rövşən RƏSULOV**



*Ermənistanın ictimai-siyasi rəyində hələ də Zəngəzur dəhlizi ətrafında ikitirəli fikirlər öz mövcudluğunu qoruyubsaxlamaqdadır. Ölkədə dəhlizin açılmasını Ermənistan üçün iqtisadi səmərə gətirəcəyini deyənlərlə əks fikirdə olanlar arasında davam edən polemikalar, hətta zaman-zaman savaş həddinə qədər yetişir.*

### Erməni deputatı: "Azərbaycan və Türkiyə elə bəyanatlar səsləndirirlər ki, onlardan da imtina etmək mənə elə gəlir ki, çətindir"

SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, Abramyan bu barədə özünün Facebook səhifəsində yazıb. Onun sözlərinə görə, məsələ Ermənistan rəhbərliyinin rəsmi səviyyədə buna necə reaksiya göstərəcəyində deyil: "Problem ondadır ki, hətta bu məsələdə kulisarxası razılaşmalar olmasa belə, Azərbaycan və Türkiyə elə bəyanatlar səsləndirirlər ki, onlardan da imtina etmək mənə elə gəlir ki, çətindir. Daha açıq desək, Azərbaycan dəhlizin olacağını öz ictimaiyyətinə inandıra bilib", erməni deputatı bildirib.



# Erməni deputatı Zəngəzur dəhlizi ilə bağlı hansı etirafı etdi?




Bu arada, Ermənistanın revanşist gücləri sırasında yer alan bir sıra deputatlar və siyasət adamları dəhlizlə bağlı fikirlərində məğlub olduqlarını anlamağa başlayırlar. Misal üçün, erməni deputatı, "Şərəf duyuram" fraksiyasının təmsilçisi Tiqran Abramyan həqiqətlə barışdığını belə ifadə edib: "Azərbaycanda "dəhliz" haqqında elə danışırlar ki, sanki o baş vermiş faktdır".

### Fraksiya təmsilçisi: "Burada pis və daha pis arasında seçim edilməlidir"

Abramyan əlavə edib ki, artıq Azərbaycan özünün beynəlxalq partnyorları ilə regional layihələr ətrafında danışıqlar aparır və bu, dəhlizlə bağlı ağır situasiyanı daha da çətinləşdirir. Erməni deputatı dolayısı ilə etiraf edib ki, dəhlizin açılmasından başqa digər hər hansı bir çarə görünmür. "Təəssüf ki, yaranmış şəraitdəki ssenari planında kifayət qədər xoş olmayan vəziyyət yaranıb ki, burada pis və daha pis arasında seçim edilməlidir", dəhlizin açılması əleyhinə olan erməni deputatı reallıqla barışmalı olduğunu gizlədə bilməyib.

*Rövşən RƏSULOV*

## 30 ildə Ermənistanı 1,5 milyondan çox insan tərk edib

"Son vaxtlar Ermənistanda mühacirətlə bağlı acınacaqlı vəziyyət yaranıb. Yaxşılığa doğru ümidlər çox azdır". Bu barədə Ermənistanın baş naziri yanında diasporla iş üzrə baş komissarı Zara Sinanyan bildirib. Eyni zamanda o, Ermənistanın bu vəziyyətlə barışa bilməyəcəyini, nəticənin ağır olacağını qeyd edib: "Bu hal 30 ildir ki, Ermənistanı diz çökdürüb. 30 il ərzində 1,5 milyondan çox insan Ermənistanı tərk edib".




Qeyd edək ki, 44 günlük müharibədən sonra Ermənistanı tərk edənlərin sayında ciddi artım yaranıb. Vaxtilə Qarabağda qanunsuz olaraq məskunlaşdırılan ermənilərin də xaricə köç etmələri vəziyyəti daha da ağırlaşdırıb. Ermənistan hökumətinin miqrasiyanı dayandırmaq üçün ciddi planının olmaması ermənilərin bütün ümidlərinin üstündən xətt çəkib. Xüsusən də Rusiyaya, Avropa ölkələrinə, Ukraynaya köç edən ermənilər ölkənin demoqrafik vəziyyətinə ağır zərbə vurub.



İLHAM

# Əl vurma, yandırar!

***Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, hədəfi və məqsədi hüquqi, demokratik dövlət quruculuğu ilə irəliləmək olan ölkəmizdə yetişməkdə olan gənc nəslin vətənpərvərlik hisslərinə malik olması üçün onlarda bu məfhuma sevgi yaradılmalıdır. Təbii ki, bu diqqət, sevgi ilk öncə ailədən, daha sonra məktəbdən, sonrakı mərhələdə isə cəmiyyətdən formalaşır. Yunan filosofu Aristotel deyirdi: "Gənclərin yetişməsinə əhəmiyyət verin. Çünki bu yolda hər hansı bir məsuliyyətsizlik məmləkətin fundamentini məhv edər".***

Məlum faktdır ki, müasir dövrdə hər bir gəncin hansı xarakterə və düşüncəyə malik gənclə dostluq və yoldaşlıq etməsi əsas amillərdəndir. Yəni bir gənc bilikli, savadlı, cəmiyyətimizin inkişafına xeyir verməyi hədəfləyən gənclə dostluq etsə, təbii ki, həmin gənc də dostuna xas xusiyyət ortaya qoyacaq. Yanlış düşüncə daşıyıcısı olan gənclə yoldaşlıq etsə, həmin gəncin də sonu dostu kimi olacaq. Çin atalar sözüdür, "Dost seçərkən sizdən daha yaxşı olanı seçin. Dünyada çox tanışınız ola bilər, amma həqiqi dostlar çox azdır".

Aparılan araşdırmalar və mütəxəssislərin gəldiyi qənaətə görə, yetişməkdə olan gənc nəsil qeyr-ənənəvi meyillərə, təsirlərə düşərsə, bu zaman gənclər cəmiyyətin istək və arzularına zidd yaşam tərzi seçmiş olurlar. Bu isə təhlükəlidir. Bundan ailə, həm də cəmiyyət zərər görmüş olar. Bu baxımdan yetişməkdə olan gənc nəsli adət-ənənələrə, milli dəyərlər, sədaqət ruhunda tərbiyə edilməsi üçün maarifləndirmə işi aparılmalıdır. Hesab edirəm ki, maarifləndirmə işi öncə ailədən başlamalıdır. Ailə hər bir gəncin formalaşmasında mühüm rol oynayır. Məsələ, azad yaşam, demokratik həyat, "qapını açdım, get necə istəyirsən, elə də yaşa" prinsipi üzərində qurulsa, o gənci sonu məlum olmayan qaranlıq tunelə göndərmiş oluruq. Unutmaq olmaz ki, Azərbaycan xalqının özünəməxsus adət-ənənələri mövcuddur. Məsələn, Azərbaycan dəyərlərinə görə, az qala valideynlər ömürlərinin sonuna qədər övladlarına uşaq kimi baxır, onların hər addımlarını izləyir, öyüd-nəsihətlərini əsirgəmirlər. Həyat sübut edir ki, valideyn nəzarətindən kənarda qalan əksər gənc cəmiyyət üçün yararlı vətəndaş ola bilmir. Bununla bağlı kifayət qədər sübutlar, misallar göstərmək olar, sadəcə, onu vurğulamaq lazımdır ki, gənclik gələcəyimiz olduğundan, gənclərlə ehtiyatlı davranılmalıdır. Gənclik bir növ yanan oddur, alovdur, qəzəbli şəkildə ona əl vursan yandırar. Lazımdır ki, ehtiyatla, həm də səbrlə gənci ailəyə bağlılığa, cəmiiyətimizin inkişafına töhfələr verməyə, vətənə, torpağa sevgini başa salıb, onu bu istiqamətdə tərbiyə edəsən.

Açıq şəkildə qeyd edilməlidir ki, dövlətimiz gənclərin təminatı, inkişafı ilə bağlı üzərinə düşən öhdəlikləri yerinə yetirir. Azərbaycanda gənclərin bilikli, savadlı, sağlam, vətənpərvərlik ruhunda böyüməsi dövlət - gənclər siyasətinin ən mühüm istiqamətlərindəndir. Dövlət siyasəti gənclərin təhsil səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün, fiziki və mənəvi sağlamlığının möhkəmləndirilməsi üzərində qurulub. Azərbaycan barmaqla sayılan o dövlətlərdəndir ki, "Gənclər haqqında qanun" qəbul edib. 2007-ci ildə ölkədə "Gənclər ili" elan olunub, 2008-ci ildə Azərbaycanın Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəxri sədrliyi ilə Gənclərin Məşğulluğu üzrə IV Dünya Sammiti, Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadası keçirilib. 2015-ci ildə Bakı şəhərində Avropa oyunları, daha sonra İslam Həmrəylik oyunları keçirilib, 2021-ci ilin dekabrın 17-də isə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə ali təhsil alan tələbə-gənclərin aylıq təqaüdləri 50 faizə qədər artırılıb. Həyata keçirilən bu kimi işlər bir məqsədə yönəlib- gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsi, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsi. Müsbət haldır ki, bütün bunların uğurlu nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm naliyyətlər qazanılıb. 44 günlük Vətən müharibəsində Azərbaycan gənclərinin göstərdiyi şücaət, qəhramanlıq aparılan dövlət siyasətinin bəhrəsi hesab etmək olar. Eyni zamanda, bu gün gənclərimiz müxtəlif Avropa və dünya idman arenalarında Azərbaycan bayrağını ən yüksək zirvələrə qaldırıb, himnimizi səsləndirməyə nail olurlar. Gənclərimiz öz bilik və bacarıqları ilə beynəlxalq elmi olimpiadalarında, musiqi yarışmalarında millətimizə qürurverici anlar yaşadırlar. Bu gəncliyə əhsən və təşəkkürlər.



# “İtaliya nəinki təkcə Avropa qitəsində, dünya miqyasında bizim ən yaxın tərəfdaşlarımızdan biridir”

***44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə Müzəffər Ordumuz torpaqlarımızı erməni təcavüzkarlarından azad edərək işğala son qoydu. Azərbaycanın işğalçı Ermənistan üzərində parlaq qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verildi. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunan ərazilərimizə səfəri zamanı erməni faşistlərinin törətdiyi vəhşiliklərlə tanış olur, öz tapşırıq və göstərişlərini verir.***

Dövlət başçısının tapşırığı ilə artıq bir neçə yol layihəsinin icrasına başlanılıb və uğurla davam etdirilir. Reallaşacaq layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. İrimiqyaslı layihələr sırasında beynəlxalq hava limanları qeyd olunmalıdır. Artıq Füzulidə beynəlxalq hava limanlarının açılış olub. İşğaldan azad edilmiş rayonlarda ”yaşıl enerji” zonasının yaradılması məqsədilə, ilkin olaraq, pilot layihələr qismində bəzi yerlərdə ”ağıllı şəhər” və ”ağıllı kənd” konsepsiyalarının tətbiqinə start verilib. Əlbəttə ki, belə irimiqyaslı lahiyələrə start verilməsi işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasının göstəricisidir. Prezident İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, azad edilmiş bölgələrin - Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanlar açılacaq.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsində Azərbaycanda baş verən proseslər dünyanın diqqətindən kənarda qalmadığı kimi, bu gün də regiondakı vəziyyət və müharibədən azad olunan ərazilərimizdə aparılan abadlıq və quruculuq işləri və s. diqqətdən kənarda deyil.

## ”DOST ÖLKƏ OLARAQ İTALİYA BİZİM AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ FƏALİYYƏT GÖSTƏRMƏK ÜÇÜN DƏVƏT ETDİYİMİZ İLK ÖLKƏLƏRDƏN BİRİ OLUB”

Əlbəttə ki, işğaldan azad olunan ərazilərdə Azərbaycana dost olan ölkələr yenidənqurma işlərinə töhfə verəcəklər. Bir sıra dost ölkələr - Türkiyə, Pakistan, Çin, İsrail, Belarus kimi dövlətlər ərazilərimizin bərpası prosesində iştirak etmək arzularını ifadə ediblər və hazırda bəzi ölkələr qeyd olunan ərazilərdə reallaşan layihələrin icrasında iştirak edirlər. İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişafının nəticəsi olaraq İtaliya da tariximizin çətin zamanında ölkəmizlə həmrəylik nümayiş etdirdi. Əlbəttə ki, ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. ”İtaliya nəinki təkcə Avropa qitəsində, dünya miqyasında bizim ən yaxın tərəfdaşlarımızdan biridir. Hesab edirəm ki, indi münasibətlərimiz çox yüksək səviyyədədir. Bunun göstəricisi odur ki, biz strateji tərəfdaşlıq haqqında sənəd imzalamışıq. İtaliya Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənəd imzaladığı Avropa İttifaqına üzv olan 9 dövlətdən biridir. Prezidentlərin və digər hökumət rəsmilərinin yüksək səviyyəli səfərləri olub”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə işgüzar səfərdə olarkən İtaliyanın ”İl Sole 24 Ore” qəzetinə müsahibə verərkən bildirib. Son illərdə ölkələr arasında bütün istiqamətlərdə, o cümlədən, siyasi-iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində nailiyyətlər əldə olunub. Ölkə başçılarının qarşılıqlı rəsmi səfərləri mövcud münasibətlərin inkişafını daha da yüksəltmişdir. Azərbaycan ilə strateji tərəfdaş olan İtaliya arasında əlaqələrin inkişafına böyük təkan verən məqamların mövcudluğunu şərtləndirən xeyli sayda sənədlər mövcuddur.

”İndi isə Transadriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan İtaliyanın mühüm təchizatçısına çevrilib. İtaliya istehlakında Azərbaycan qazının həcmi ilbəil artacaq” - deyən Cənab Prezident bildirib ki, eyni zamanda, dost ölkə olaraq İtaliya bizim azad edilmiş ərazilərdə fəaliyyət göstərmək üçün dəvət etdiyimiz ilk ölkələrdən biri olub. Birincisi Türkiyə idi, ikincisi İtaliya. Dövlət başçısı bildirib ki, biz tərəfdaşlığımızı nümayiş etdirmək üçün və italyan şirkətlərinin yüksək səviyyəli fəaliyyətini, zövqünü və ölkələrimiz arasında dostluq münasibətlərini nəzərə alaraq, məhz buna görə italyan şirkətini dəvət etdik. İtalyan şirkətlərinin azad edilmiş ərazilərdə və Azərbaycanın digər yerlərində çoxsaylı tikinti layihələrində iştirakını qeyd edən dövlət başçısı Prezident Mattarellanın ölkəmizə səfəri zamanı birlikdə italyan şirkəti tərəfindən tikilmiş neft-kimya zavodunun açılışını etmələrini diqqətə çəkib: ”İndi isə eyni şirkət bizim neft emalı zavodumuzun yenidən qurulması üzərində fəal şəkildə işləyir. Bunlar bir neçə milyardlıq layihələrdir. Bu sahələr sənaye, neft-kimya məhsulları, tikinti, memarlıq, bərpa işləri, geniş diapazonlu məsələlərdir. Bir daha qeyd edirəm, bu, bizim dostluğumuzu və tərəfdaşlığımızı nümayiş etdirir”.

## ”BİZ İTALYAN MEMARLARINI ŞUŞADAKI TARİXİ ABİDƏLƏRİMİZİ VƏ MƏSCİDLƏRİMİZİ BƏRPA ETMƏK ÜÇÜN DƏVƏT ETMİŞDİK”

İşğaldan azad olunan bölgələrdə aparılan infrastruktur layihələrin həyata keçirilməsində italyan şirkətləri də çox fəallıq göstərəcəklər. Azərbaycana dost olan İtaliya şirkəti ilə enerji istehsalı barədə də müqavilə imzalanıb. Azad olunmuş ərazilərdə enerji istehsalı üçün böyük potensial var. Bunlar yenilənən enerji mənbələrindən - su, günəş və küləkdən alınan enerjilərdir. Ölkəmiz azad olunmuş ərazilərdə İtaliyanın kənd təsərrüfatının inkişafı təcrübəsindən də yararlanmaq niyyətindədir.

”Sizə deyə bilərəm ki, hazırda italyan şirkətlərinin orada icra etdiyi çoxlu layihələr var” - deyən Cənab Prezident qeyd edib ki, biz italyan memarlarını Şuşadakı tarixi abidələrimizi və məscidlərimizi bərpa etmək üçün dəvət etmişdik. Bu, çox rəmzi məna daşıyan bir jestdir, çünki Şuşa bizim üçün müqəddəs yerdir. Şuşa Azərbaycanın mədəni paytaxtıdır. Dini məkanlar isə hər kəs üçün müqəddəsdir. Bu, çox yüksək səviyyəli etimaddır”.

## ”ŞUŞANIN DİRÇƏLDİLMƏSİ SÜRƏTLƏ GEDİR VƏ ŞUŞALILAR ŞUŞAYA QAYIDIRLAR”

Bildiyimiz kimi, artıq Şuşanın baş planı təsdiq edilib və birinci mərhələdə orada üç, dörd və beşmərtəbəli 25 yaşayış binasının inşası nəzərdə tutulub. Bu ilkin mərhələlərdə şuşalıların doğma torpağa qayıtmaları üçün planlaşdırılıb. Əlbəttə ki, baş plan hazırlanarkən, şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulub. Baş plana əsasən, Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq və məhəllələr üzrə əhali sayı 2020 nəfər müəyyənləşib. Bəli, Şuşanın bərpası istiqamətində kifayət qədər işlər görülüb. Şuşanın elektrik təsərrüfatı, su xətləri bərpa olunub. Tarixi dini-mədəni abidələrimiz bərpa və təmir olunur. Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyulub, Bülbülün evinin açılışı olub. ”Qarabağ” hoteli əsaslı təmirdən sonra istifadəyə verilib. Bütün bu və digər layihələr qısa bir zamanda icra olunub. di. Görülən işlərin davamı olaraq yeni yaşayış kompleksinin təməli də qoyulub. Prezidentin vurğuladığı kimi, ”Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik”.

***Nəzakət ƏLƏDDİNQIZI***

---

***Dünən Bakıda keçiriləcək Azərbaycan-Türkiyə 1-ci Enerji Forumu çərçivəsində 6 sənəd imzalanıb. Trend-in məlumatına görə, Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməzin həmsədrliyi ilə keçirilən forumda ilkin olaraq Azərbaycan-Türkiyə I Enerji Forumunun Protokolu imzalanıb.***




# Azərbaycan-Türkiyə Enerji Forumu çərçivəsində 6 sənəd imzalanıb

Daha sonra Türkiyə Respublikasının Enerji və Təbii Sərvətlər Nazirliyi ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi arasında təbii qazın tədarükünə dair Anlaşma Memorandumu imzalanıb.

Forum çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədənçilik sahəsində əməkdaşlıq haqqında Sazişə imza atılıb.

Həmçinin Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi və ”AzerGold” Qapalı Səhmdar Cəmiyyəti ilə Türkiyə Respublikası Energetika və Təbii Sərvətlər Nazirliyinin Mədən Tədqiqi və Axtarış Baş İdarəsi və MTA Beynəlxalq Mədənçilik Şirkəti arasında əməkdaşlığın həyata keçirilməsi sahəsində Anlaşma Memorandumu imzalanıb.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidməti ilə Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyinin Mədən Tədqiqi və Axtarış Baş İdarəsi arasında yer elmləri sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

---

# Avropada təbii qazın qiyməti rekord həddə çatıb



Avropada qazın qiyməti ticarət sessiyasının sonunda min kubmetr üçün 2 100 ABŞ dollarından yuxarı olub. SİA xəbər verir ki, Londonun ”İCE Futures” birjasında keçirilən hərracda TTF qovşağında yanvar fyuçerslərinin qiyməti hər min kubmetr üçün 2 107 ABŞ dolları səviyyəsində ticarəti başa vurub. Beləliklə, qazın qiymətinin ümumi artımı təxminən 23% təşkil edib.

Qeyd edək ki, Avropada qazın qiymətinin sürətlə artması səhər saatlarından başlayıb. Bu günün rekord qiyməti isə 2190,4 ABŞ dolları təşkil edib.

***Aysel Məmmədova***

### Caliber-in danılmaz faktları Bakının antiterror əməliyyatları keçirməsinə zəmin yarada bilərmi?

# Laçın dəhlizi, yoxsa "dəliyi"?



"Ermənistanın Qarabağ müharibəsindəki məğlubiyyətini hüquqi cəhətdən təsdiq edən 2020-ci ilin noyabr bəyanatı imzalandığı andan bir ildən çox müddət keçib. Lakin hələ də üçtərəfli bəyanatın bir çox bəndləri erməni tərəfindən sabotajçılığa uğradılır". SİA xəbər verir ki, bu barədə rusdilli Caliber analitik informasiya mərkəzinin hazırladığı videosüjetdə bildirilir.

Qeyd edilir ki, əgər Bakının Zəngəzur dəhlizi məsələsində müəyyən irəliləyişləri nəzərə çarpırdısa, razılaşmanın 4-dü bəndində göstərilən və erməni silahlı formalaşmaların rusiyalı sülhməramlıların Qarabağa daxil olması ilə paralel şəkildə bölgədən çıxarılması məqsədini daşıyan tələbin Ermənistan tərəfindən yerinə yetirilməsi aktuallığında qalmaqdadır.

Caliber qeyd edir ki, məlum olduğu kimi, sülhməramlılar Qarabağa yerləşdilər, ancaq buna baxmayaraq onların müvəqqəti məsul olduqları ərazilərdə erməni hissələri qalmaqda davam edir.

### Bu "dəlikdən" Ermənistandan Qarabağa hərbi geyimlərini mülki geyimlə əvəzləyən müqaviləli hərbçilərdən tutmuş Fransa prezidentliyinə namizədlərə qədər hər kəs istifadə edir

"Ayrıca süjeti "Laçın dəhlizinə", yaxud daha dəqiq deyilərsə - demək olar ki, hər kəsin nəzarətsiz şəkildə keçdikləri "Laçın dəliyinə" həsr etmək olar", deyə vurğulanan videoşərhdə xatırladılır ki, bu "dəlikdən" Ermənistandan Qarabağa hərbi geyimlərini mülki geyimlə əvəzləyən müqaviləli hərbçilərdən tutmuş Fransa prezidentliyinə namizədlərə qədər hər kəs istifadə edir: "Rusiya sülhməramlılarının bir şüşə arağa, ya da bir blok siqaretə görə bu cür qanunsuz səfərlərə gözlərini yummalarını düşünmək sadəlöhvlük olardı - halbuki bu motiv də tez-tez göstərilir. Ancaq problem daha dərindir".

Analitik mərkəz izləyicilərə Ermənistan tərəfinin noyabr razılaşmalarındakı 4-dü bəndə əməl etməməsi ilə bağlı bəzi insaydları açır və qeyd edir: "Bizə məlum olduğu kimi, Bakının Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərdəki separatçı silahlıların olması ilə bağlı əsaslı etirazlarına rusiyalılar növbəti bəyanatlarını veriblər. Sən demə, üçtərəfli bəyanatın heç bir yerində dəqiq olaraq yazılmayıb ki, Rusiya sülhməramlıları erməni hərbçilərini Qarabağdan çıxarmalıdırlar. Rusiya Federasiyasının sülhməramlı güclərinin funksional məsuliyyəti sülhün təmin edilməsindən ibarətdir. Lakin erməni qanunsuz formalaşmalarının regiondan çıxarılması rusiyalıların kompetensiya sferasına guya daxil deyil".

### Sülhməramlı kontingentin möhkəmləndirmə, fortifikasiya və mühəndis işləri aparan quldur formalaşmalarını müdafiə etmək funksiyası nə zamandan mövcuddur?

"Əlbəttə ki, sülhməramlıların bu cür düşüncələri heç bir tənqidə tab gətirə bilməz. Gəlin açıq danışaq. Əgər biz hər bir hərfə ayrı-ayrılıqda istinad edərək, bu zaman üzə çoxsaylı narahatlıq yarada biləcək suallar çıxara bilərik. Misal üçün, üçtərəfli bəyanatın hansı bəndində yazılıb ki, Qarabağda Rusiyanın Fövqəladə Nazirliyinin humanitar fəaliyyəti göstərməlidir? Heç bir yerdə, lakin bu, praktikada işləyir və Azərbaycan tərəfi yerlərdə əhaliyə humanitar yardımın göstərilməsi üçün heç vaxt bu kimi fəaliyyətə maneələr yaratmayıb", bildirən Caliber-in videoşərhində davam edilir: "Yaxud sülhməramlılara belə bir sual ünvanlana bilər. Etibarlı mənbələr tərəfindən əldə edilərək təqdim edilən videoda biz görürük ki, qanunsuz silahlı formalaşmalar inamla səngərlər qazırlar. Onlara "nəzarət" edənlər isə - tamamilə doğrudur, rusiyalı sülhməramlı qüvvələrdirlər! Biz rusiyalıların təmas xətlərində kənd təsərrüfatı işlərinin təhlükəsizliyinin təmin edilməsinə anlayışla yanaşırıq, halbuki bu məsələ də onların olmayan mandatlarında qeyd edilməyib. Lakin bizim videoda gördüklərimiz - axı bu rus hərbçilərinin erməni quldurlarını açıq şəkildə hərbi təhlükəsizliklərini nəzarətdə saxlamalarıdır. Bəlkə generallar Rüstəm Muradov və Aleksey Avdeyev bizim sadə sualımıza cavab verərlər ki, sülhməramlı kontingentin möhkəmləndirmə, fortifikasiya və mühəndis işləri aparan quldur formalaşmalarını müdafiə etmək funksiyası nə zamandan mövcuddur?

Və ya daha bir sual-nəyə görə sülhməramlılar erməni quldur formalaşmalarının fəaliyyətinin qarşısını almırlar? Söhbət konkret olaraq Ağdərədəki ümumqoşun hərbi poliqonundan, Xocalıdakı tankodrom da daxil olmaqla iki hərbi poliqonlardan, həmçinin ermənilərin Tonaşen adlandırdıqları Təpəkənd poliqonundan gedir".

### Rus əsgər və zabitlərinin xeyir-duaları altında və əllərində silahlarla sülənən cəlladlar orada olarkən bizim əhali Xocalıya geri dönəcəkmi?

"Bizim əlimizdə həmçinin Rusiya sülhməramlıları kontingentinin separatçıları Xocalıda keçirdikləri tank təlimləri ilə bağlı Azərbaycanın müraciətinə etinasız yanaşması faktı da var. Bu haqda dəqiq informasiyanı biz mütləq dərc edəcəyik", deyə caliber-in videometarialında vurğulanır və qeyd edilir ki, erməni formalaşmalarının Qarabağdan çıxarılmaması bütövlükdə qaçqınların öz yaşayış yerlərinə geri dönmələrini nəzərdə tutuan üçtərəfli razılaşmanın 7-ci bəndinin realizəsinə başlamağa imkan vermir: "Rus əsgər və zabitlərinin xeyir-duaları altında və əllərində silahlarla sülənən cəlladlar orada olarkən bizim əhali Xocalıya geri dönəcəkmi?

Onu da etiraf etmək lazımdır ki, rusiyalı sülhməramlı konntingentinin mövqeyində Bakı üçün pozitiv siqnallar da var. Əgər sislahlı separatçıların Azərbaycan ərazisindən çıxarılması rusiyalı sülhməramlı kontingentinin məsuliyyəti üzərində deyilsə, onda həmin məsələ ilə müvafiq olaraq Azərbaycanın xüsusi təyinatlı qüvvələri məşğul ola bilər. Əminik ki, Yaşmadan olan uşaqlar, dəniz pişikləri, Yarasa və Azərbaycan Silahlı Qüvvələrinə adi olan başqa xüsusi bölüklər qarşıya qoyulan antiterror əməliyyatları məsələsini dəqiqliklə və həvəslə yerinə yetirərlər. Biz uzun müddət silah doldururuq, amma erməni quldurlarının başına atəş yağdıranda bu heç də az görünməyəcək".

*Tərcümə etdi*
*Rövşən RƏSULOV*

VİDEOFAKT+AKTUAL

# Ermənilərin ən böyük arzularından biri...

***..Əslində, bu başadüşüləndir. Yəni İranın xarici işlər naziri Bakıya rəsmi səfərə gəlib və burada "Azərbaycan Respublikası ilə müştərək komitənin təşkili üçün razılığa gəldik" bəyanatını verməsi, təbii ki, erməniləri qıcıqlndırmalı idi. Amma buna baxmayaraq, hər halda, ümid yenə də özünə təsəlli verməyə qalır...f***

Beləliklə, ilk olaraq, İranın xarici işlər nazirinin Bakıya səfər edib və burada Azərbaycan rəhbərliyi ilə danışıqlar aparmasının ermənilər üçün elə də xoş olmadığını deyən erməni iranşünas alim(?) Vardan Voskanyan bədbinliyini özünə verməyə çalışdığı təsəlli ilə gizlətməyə də çalışır.

Deməli, Voskanyanın sözlərinə görə, Hüseyn Əmir Abdullahiyanın Bakı səfəri İranın Azərbaycana qarşı siyasətinin müəyyən meylinin sübutu kimi sayıla bilməz. Niyə? Çünki erməni vektoru İran üçün öz aktuallığ və əhəmiyyətini saxlamaqda davam edir . Deyim ki, burada da müəyyən bir təsəlli arayan Voskanyan "...amma buna baxmayaraq, yenə də, erməni tərəfi baş verənlərdən özü üçün müəyyən xoşagəlməz nəticələr çıxarmalıdır"-deyə bildirir.

Maraqlıdır ki, erməni iranşünas bütün bu yaşananlarda günahkar kimi, bu dəfə də Paşinyan hakimiyyətini görür, hakimiyyəti "bir çox hallarda gözlənilməz hərəkətlərdə" suçlayır.

Məsələn, Gorus-Qafan marşrut yolunun müəyyən hissəsinin Azərbaycanın nəzarətinə keçməsindən sonra İrandan Ermənistana və daha sonra Qara dəniz limanlarına yüklərin daşınmasına "ciddi əngəl" törətdiyini deyən Voskanyan İranın bu maneələri aradan qaldırmaq üçün təklif etdiyi iqtisadi və infrastruktur layihələrə Paşinyan hökumətinin göstərdiyi "etinasızlığını" xatırladır.

Qeyd edilməlidir ki, yaşananlara erməni düşüncəsi ilə yanaşan iranşünasın fikrincə, hazırda İran şimala tranzit yollunun olması üçün bütün variantlara əl atır, yəni və bu istiqamətdə hər vəhclə çalışır. Voskanyana görə, hazırda Tehranın Bakıya daha yaxın olmaq istəyi də məhz bu kontekstdə nəzərdən keçirilməlidir, "...çünki Bakı ilə əməkdaşlıq Tehrana müəyyən manevr sahəsi verə bilər".

Maraqlıdır ki, yaxınlarda reallaşacağı heç bir şübhə doğurmayan "Zəngəzur dəhlizi" ideyasının birbaşa İranın maraqlarını təhdid etdiyini bildirən erməni iranşünas iki ölkə, yəni İranla Azərbaycan azrasındakı səmimiyyətin varlığına da şübhə ilə yanaşır.

Bununla yanaşı, Voskanyan Azərbaycanın Ermənistan-İran əməkdaşlığını kommunikasiya sahəsində, xüsusilə də qeyd olunan dəhliz vasitəsilə məhdudlaşdırdığını bildirərək hazırda ölkəsinin İranla işləmək üçün böyük geriləmələrə məruz qaldığını etiraf edir.

Yeri gəlmişkən, bu gün İran daxilində böyük bir ermənipərəstliyin mövcud olduğunu istisna etməyən iranşünas alim, bütün bunları institutlaşdırmağın vacib olduğunu bildirir: "...Düşünməməlisiniz ki, bu əhval-ruhiyyə sonradan dəyişməyəcək. Düşünürəm ki, Ermənistan-İran dostluq qruplarının yaradılması.




vəziyyəti xeyli yaxşılaşdıra və qarşılıqlı əlaqəni stimullaşdıra bilər".

Təbii ki, ermənilər burada ehtiyatlanmaqda haqlıdırlar. Çünki, tarix onların həmişə "isti qucağa" qaçdığına şahidlik edib. Əslində, bu gün ermənilər üçün elə də böyük bir önəm kəsb etmir, yəni bir vaxtlar Türkiyənin qanadı altına sığınan ermənilər, daha sonra bunu Rusiyaya dəyişdilər. İndi isə belə görünür ki, onlar Rusiyanı Fransa ilə əvəzləmək istəyirlər. İran isə hələ ki, ermənilərə əlavə "gəlir mənbəyi" kimi qalmaqadadır.

...Maraqlıdır ki, bu gün İran-Azərbaycan iqtisadi əməkdaşlığına diqqət çəkən Voskanyan erməniləri Bakı ilə Tehran arasındakı iqtisadi əməkdaşlıqda etimad göstəricisinin olmadığını inandırmağa çalışır. Onun fikrincə, guya İran Azərbaycanın bu və ya digər hərəkətlərindən hələ də ehtiyatlanır(?).

"...Doğrudur, bu gün biz indi iki ölkə arasında situasiyanın istiləşməsini görürük, amma demək lazımdır ki, iki ölkə arasında hər an eskalasiya baş verə bilər".

Əslində, Voskanyanın bu fikirləri, deyim ki, əksər ermənilərin ən böyük arzusu kimi qəbil edilməlidir.

*Ağasəf Babayev*

SƏS
25 dekabr
2021-ci il


**«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR**



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN


# Pələng ili kimlərə uğur gətirəcək? - “Gərginlik olacaq, hər şeyə hazır olun”

*Rusiyalı məşhur astroloq Tamara Qloba 2022-ci il üçün bürclərin proqnozunu hazırlayıb. Medianews.az publika.az-a istinadən xəbər verir ki, astroloqun sözlərinə görə, Pələng həyatın hər sahəsinə ciddi dəyişikliklər gətirəcək. Məqsədlərin həyata keçirilməsi üçün çoxlu imkanlar yaranacaq, amma əsas odur ki, onlardan düzgün və tam istifadə edə bilək.*



## Qoç

Qoç əhəmiyyətli və gözlənilməz dəyişikliklərə hazırlaşmalıdır. Bütün hadisələr sürətlə gedir. Heç bir şeyi əldən verməmək və hər işi vaxtında yerinə yetirə bilmək üçün özünüzü ələ almalı və güc toplamalısınız. Pozitivlik sizi əhatə edəcək. Taleyə etibar etməyə dəyər. Çoxlu imkanlarınız olacaq. Düzgün prioritetlər təyin edin. İlin ikinci yarısı rahat nəfəs almaq və nailiyyətlərinizdən həzz almaq üçün əlverişlidir.

## Buğa

İlin himayədarı Pələng Buğaları ciddi sınaqlara çəkməyəcək. Amma bu ili də sakit adlandırmaq olmaz. Ailəniz və dostlarınız sizi məyus edə bilər, hər şeyə hazır olun. Şəxsi həyatda da gərginlik olacaq, lakin ciddi münaqişələr və ayrılıqlar gözlənilmir. Güzəştlər etməyə çalışın, həm də başqalarına kifayət qədər vaxt ayırın. Sağlamlığa diqqət yetirin - xroniki xəstəliklərin qayıtması mümkündür.

## Əkizlər

Əkizlər 2021-ci ildə çəkdikləri zəhmətin və fədakarlığın bəhrəsini görəcəklər. Pələng sizi mükafatlandıracaq və istisnasız olaraq bütün sahələrdə uğur qazandıracaq. Xüsusilə karyeranızda şanslısınız. Təşəbbüskar olun. Şəxsi həyatda işlər bir qədər mürəkkəbdir. Sözlərinizə və hərəkətlərinizə nəzarət edin. Maliyyə məsələlərində obyektiv olun və pulunuzu boş yerə sərf etməyin.

## Xərçəng

Xərçənglər üçün çətin və gözlənilməz il olacaq. Həyata baxışlarınızı və münasibətinizi yenidən nəzərdən keçirmək məcburiyyətində qalacaqsınız. Çevik və səmimi olun, inadkarlıqdan və yanlış düşüncələrdən uzaq gəzin. Dəyişiklikləri əldən verməyin. Xarizmanız sizə işgüzar və şəxsi münasibətlərdə kömək edəcək. Qarşı tərəfi dinləməyi və təslim olmağı öyrənin, bəzən qüsurlara göz yumun.

## Şir

2022-ci ildə Şirlər bütün güc və qabiliyyətlərini göstərə biləcəklər. Pələng sizdən fədakarlıq və əzm tələb edəcək. Hər şansı dəyərləndirin. Xəyallarınıza doğru irəliləyin və inkişaf edin. Təkəbbür və qəddarlıq əsas düşmənləriniz olacaq - onlar sizə ancaq problemlər gətirəcək. Vaxtında dayanmaq, münasibətlərdə dürüstlük və başqaları ilə ünsiyyətdə açıqlıq göstərmək vacibdir.

## Qız bürcü

2022-ci ildə Qız bürcləri peşəkar sahədə uğur qazanacaqlar. Bəzi nümayəndələri öz bizneslərini qurmağı bacaracaqlar. Cəsarət və təşəbbüsünüz sayəsində məqsədlərinizə çatmaq üçün çoxlu imkanlarınız olacaq. Xəyalınıza mümkün qədər yaxınlaşacaqsınız. Eyni zamanda intuisiyaya qulaq asmaq və əsaslandırılmış qərarlar qəbul etmək vacibdir. Şəxsi həyatınızda dəyişikliklərə can atmayın, sabitliyi qorumağa çalışın.

## Tərəzi

Astroloq Tərəzilərə aktiv və təşəbbüskar olmağı tövsiyə edir. Bürcün yalnız aktiv nümayəndələri bütün sahələrdə uğur qazanacaqlar. Odur ki, yeni ilin ilk günlərindən tapşırıqları yerinə yetirməyə, aktiv olmağa və qarşıya yeni hədəflər qoymağa başlamalısınız. Optimizm və əzmkarlığı qoruyun, ailə və dostlara etibar edin. 2022-ci ildə planlarınızı və daxili potensialınızı reallaşdıra, istedadlarınızı üzə çıxara biləcəksiniz. Pələngin enerjisinə köklənin, hər şey mükəmməl və ahəngdar olacaq.

## Əqrəb

Əqrəblər lider mövqelərini qoruya və istənilən vəziyyətə nəzarət edə biləcəklər. Ancaq bir qələbə kifayətlənmək və istirahət üçün səbəb deyil. Qoy nailiyyətlər sizi yeni hədəflərə və üfüqlərə doğru sövq etsin. 2022-ci ildə çoxlu görüşləriniz olacaq. Bürcün tənha nümayəndələri sevgisini tapa və şəxsi həyat qura biləcəklər. Çox güman ki, seçilmiş biri ilə münasibətinizi rəsmiləşdirəcəksiniz.

## Oxatan

Oxatan bürclərinin ilin əvvəlindən vəzifəsi artacaq. Siz istənilən sahədə uğur qazanacaqsınız, ancaq bir şərtlə: öz prinsiplərinizə sadiq olmalı və bu hədəflərə çatmaq üçün aktiv şəkildə çalışmalısınız. Həddindən artıq etibar etməyin və açıq olmayın, pis niyyətli insanlar bundan istifadə edəcəklər. Özünüzü inkişaf etdirmək və şəxsi həyatınızın harmoniyası ilə məşğul olun. Bürcün subaylarının sevgi münasibəti üçün hələ vaxtı yoxdur, odur ki, gözləmək lazımdır.

## Oğlaq

2022-ci ildə Oğlaqlar çox çalışmalı, eyni zamanda qənaət etməli olacaqlar. İlin ikinci yarısında da investisiyalar mümkündür. Yalnız aktiv və təşəbbüskar olsanız, uğur qazanacaqsınız. Tapşırıqlarınıza mümkün qədər məsuliyyətlə yanaşın. Təslim olmayın, çətinlikləri cəza kimi deyil, yeni bir əvəzolunmaz təcrübə və inkişaf səviyyəsinə keçmək üçün fürsətlər kimi qəbul edin. Şəraitdən asılı olaraq hərəkətlərinizi tənzimləməyə hazır olun.

## Dolça

Dolça bürcündən olanları maliyyə uğurları gözləyir. 2022-ci il sizə yeni imkanlar və perspektivlər gətirəcək. Ola bilsin ki, əvvəllər arzulamağa belə cəsarət etmədiyiniz daha yüksək bir vəzifə tutacaqsınız. Şəxsi münasibətlər sferasında harmoniya və mütləq qarşılıqlı anlaşma hökm sürür. Ancaq keçmişdə yaşanan bütün inciklikləri özünüzdən uzaqlaşdırmalısınız. Bəzi hallarda öz maraqlarınızdan imtina edərək qarşı tərəfin fikirlərini qəbul etməyə hazır olun.

## Balıq

Balıqlar üçün çox əlverişli ildir. Sizə əsəbiləşmək olmaz və bunun üçün şərait yaranmayacaq. Planetlər və bütün kainat sizin tərəfinizdədir. Xüsusilə maliyyə sahəsində vəziyyət xeyrinizə olacaq. İntuisiyanıza güvənin və bu dövrün bütün imkanlarından istifadə edin.

# Buffon: ”Ronaldo “Yuventus”un sistemini pozdu”



“Parma”da oynayan ”Yuventus”un sabiq qapıçısı Canluici Buffon ”Mançester Yunayted”in hücumçusu Kriştiano Ronaldonun Turin təmsilçisində oynadığı vaxtlardan danışıb. ”TUDN” xəbər verir ki, o deyib ki, portuqaliyalı oyunçunun ”Yuventus”a keçidindən sonra klubun sistemi pozulub: 2017-ci ildə Çempionlar Liqasının finalına çıxdıq, çünki təcrübəli komandamız var idi. Amma hər şeydən əvvəl bir idik və heyətdə yer almaq üçün rəqabət çox güclü idi. Biz bu ruhu Ronaldo gələndən sonra itirdik.. Ronaldonun ”Yuventus”dakı ilk mövsümündə PSJ-də idim. Sonrakı iki mövsümü birlikdə keçirdik. Yaxşı işlər gördük, amma Ronaldo ”Yuventus”un sistemini pozdu”.

## ELAN

**Saatlı rayonu A. Bayramov adına Məmmədabad kənd tam orta məktəb tərəfindən Əzizov Oktay Əsgər oğlunun adına 1998-ci il də verilmiş attestat itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4600**